## ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEV MÜASİR MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTİNİN MEMARI VƏ QURUCUSUDUR

Müstəqil Azərbaycan dövləti hazırkı inkişaf mərhələsinə asan yolla çatmayıb. 1991-ci ildə yenidən müstəqillik əldə etdikdən sonra müxtəlif sosial-iqtisadi, siyasi problemlərlə üzləşən, vətəndaş müharibəsinin astanasında olan Azərbaycan, hətta öz müstəqilliyini itirmək təhlükəsi ilə qarşılaşdı, ölkədə ictimai-siyasi gərginlik daha da dərinləşərək anarxiya həddinə çatdı. Bu vəziyyət 1993-cü ilə qədər davam etdi...




Bax səh. 3

## AZƏRBAYCANIN BÖLGƏLƏRİNDƏ MEYVƏ-TƏRƏVƏZ İSTEHSALINDA CİDDİ ARTIM MÜŞAHİDƏ OLUNUR

Azərbaycanda bütün sahələrin paralel inkişafı, iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun dinamik inkişafının təmin edilməsi, rəqabətqabiliyyətliliyin artırılması və investisiya qoyuluşunun sürətləndirilməsi sosial-iqtisadi inkişaf siyasətinin prioritet istiqamətlərindəndir. Məhz həyata keçirilən bu siyasət nəticəsində əldə edilən uğurlar regionların hərtərəfli inkişafını təmin edib. Daha dəqiq desək, sosial-iqtisadi inkişaf dinamikasında regionların payı ilbəil artmaqdadır. Bu da, ilk növbədə, bölgələrin ənənələri, inkişaf perspektivləri...




Bax səh. 8



Yeni Azərbaycan Partiyası Azərbaycanı müstəqillik yolunda inkişaf etdirməyə qadir bir partiyadır


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. 04 oktyabr 2018-ci il, cümə axşamı / № 187 (5314). Yeni Azərbaycan Partiyasının orqanı. Qiyməti 40 qəpik


# Prezident İlham Əliyev Çexiyanın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib





## Prezidentin iş günü

Prezident İlham Əliyev "Basqal" Dövlət Tarix-Mədəniyyət Qoruğu haqqında Sərəncam imzalayıb.

## Ölkəmizdə qeyri-neft sektorunun inkişafı və əhalinin sosial rifahının yüksəldilməsi istiqamətində həyata keçirilən tədbirlər özünün müsbət nəticəsini göstərir

...Ölkəmizin iqtisadi inkişaf göstəriciləri olduqca pozitivdir və müxtəlif beynəlxalq reytinq institutları, araşdırma mərkəzləri tərəfindən yüksək qiymətləndirilir. Azərbaycan son 15 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasətin fonunda böyük inkişaf yolu keçib. Bu hərtərəfli inkişaf bütün sahələri əhatə etməklə yanaşı, Azərbaycanın iqtisadi qüdrətinin artmasını təmin edib. Həyata keçirilən iqtisadi siyasətin nəticəsi kimi, ötən illər ərzində ölkəmizin valyuta ehtiyatları...

Bax səh. 6

## Görkəmli dövlət xadimi Murtuz Ələsgərovun 90 illik yubileyinə həsr olunan beynəlxalq konfrans bölmə iclasları ilə davam edib

Azərbaycan Respublikası Milli Məclisinin, Yeni Azərbaycan Partiyasının və Bakı Dövlət Universitetinin (BDU) birgə təşkilatçılığı ilə görkəmli dövlət xadimi, Əməkdar hüquqşünas, professor Murtuz Ələsgərovun...




Bax səh. 2

## Bakıda Dünya Türklərinin Həmrəylik Günü qeyd olunub

Oktyabrın 3-də Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi, "Müasir İnkişaf" və "Gənclərin Töhfəsi" İctimai birlikləri tərəfindən Dünya Türklərinin Həmrəylik Günü münasibətilə tədbir keçirilib. AZƏRTAC xəbər verir ki, Rəşid Behbudov adına Dövlət Mahnı Teatrında keçirilən tədbirdə əvvəlcə Xalq artisti Azərinin ifasında "Ey Turanım!" mahnısı səsləndirilib. Sonra səhnəyə türkdilli ölkələrin dövlət bayraqları gətirilib. Milli Məclisin deputatı, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu çıxış edərək türkdilli dövlətlərin tarixindən danışıb...

Bax səh. 4



## ŞAMAXI ASTROFİZİKA RƏSƏDXANASINDA BDU VƏ AMEA-NIN BİRGƏ SƏYYAR İCLASI KEÇİRİLİB

Oktyabrın 3-də Şamaxı Astrofizika Rəsədxanasında Bakı Dövlət Universiteti (BDU) Elmi Şurasının və Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Rəyasət Heyətinin birgə səyyar iclası keçirilib...

Bax səh. 4

## AVROPA PARLAMENTİNİN KİPRDƏN OLAN DEPUTATI İŞĞALÇILARIN DƏSTƏKÇİSİ ROLUNDA

AP-nin mandatından sui-istifadə edən Eleni Teoxarus işğalçı Ermənistanın və qondarma separatçı rejimin təbliğatçısına çevrilib

Azərbaycan torpaqlarını işğal altında saxlayan Ermənistan təcavüzkarlıq siyasətini davam etdirməklə beynəlxalq hüquq normalarını kobudcasına pozur. Belə ki, Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazilərində qeyri-qanuni fəaliyyət göstərən separatçı bir rejim yaradaraq beynəlxalq qanunları, sərhədlərin toxunulmazlığı ilə bağlı konvensiyaları pozan Ermənistan bununla həm də Cənubi Qafqaz regionunda sülhə başlıca təhdid olduğunu açıq şəkildə göstərir. Eləcə də işğal etdiyi Azərbaycan torpaqlarına bir sıra xarici şəxslərin "səfərlər"ini təşkil etməklə Dağlıq Qarabağda yaradılan qondarma terrorçu rejimi "təbliğ" etməyə çalışan rəsmi İrəvan beynəlxalq razılaşmaları da heçə saydığını nümayiş etdirir. Amma ölkəmiz hər zaman bu tip qeyri-qanuni addımların...

Bax səh. 6



## AMERİKA BİBLİYA CƏMİYYƏTİNİN NÜMAYƏNDƏSİ ÖLKƏMİZDƏKİ DÖVLƏT-DİN MÜNASİBƏTLƏRİ BARƏDƏ MƏLUMATLANDIRILIB

Oktyabrın 3-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı Amerika Bibliya Cəmiyyətinin Beynəlxalq missiyası departamentinin direktor müavini Çarlz Lambert ilə görüşüb...

Bax səh. 5

## Milli Məclisin İnsan hüquqları komitəsinin iclası keçirilib

Oktyabrın 3-də Milli Məclisin İnsan hüquqları komitəsinin iclası keçirilib. AZƏRTAC xəbər verir ki, Milli Məclis sədrinin müavini, İnsan hüquqları komitəsinin sədri Bahar Muradova Azərbaycan Xalq Cümhuriyyətinin və Parlamentin 100 illiyi ilə bağlı ölkəmizdə...



Bax səh. 4

## Ədliyyə və məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi diqqət mərkəzindədir

Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, ədliyyə naziri Fikrət Məmmədov...



Bax səh. 2

## "Azərbaycan qeyri-maddi mədəni irs nümunələrinin Dövlət Reyestri" portalının təqdimatı olub

Oktyabrın 3-də Muzey Mərkəzində Mədəniyyət Nazirliyi tərəfindən hazırlanmış "Azərbaycan qeyri-maddi mədəni irs nümunələrinin...



Bax səh. 2

## Pərviz Şahbazov: 2030-cu ilədək Azərbaycanda bərpaolunan enerji mənbələrinin ümumi həcmi 30 faizə çatacaq

Moskvada "Rusiya energetika həftəsi" beynəlxalq forumu açılıb. Forumun gedişində Azərbaycanın energetika naziri...



Bax səh. 5

## "ASAN xidmət" ilə Vəkillər Kollegiyası arasında anlaşma memorandumu imzalanıb

Oktyabrın 3-də Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə...



Bax səh. 5

# Prezident İlham Əliyev Çexiyanın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib







Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 3-də Çex Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Milan Ekertin etimadnaməsini qəbul edib.

AZƏRTAC xəbər verir ki, səfir Milan Ekert fəxri qarovul dəstəsinin qarşısından keçib.

Səfir Milan Ekert etimadnaməsini Prezident İlham Əliyevə təqdim edib.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət edib.

Dövlətimizin başçısı Azərbaycan-Çexiya ikitərəfli münasibətlərinin səviyyəsindən və ölkələrimiz arasında qarşılıqlı fəaliyyətdən məmnunluğunu ifadə edib, eyni zamanda, əlaqələrimizin Azərbaycan-Avropa İttifaqı və Azərbaycan-NATO əməkdaşlığı baxımından da önəmini vurğulayıb. Prezident İlham Əliyev bildirib ki, ölkələrimiz həyata keçirilən əməkdaşlığın digər sahələrdə də yaxşı nəticə verməsində maraqlıdır və dövlətimizin başçısı buna nail olunacağına əminliyini ifadə edib. Prezident İlham Əliyev bu baxımdan parlamentlərarası, hökumətlərarası, biznes icmaları arasında əlaqələrin və qarşılıqlı səfərlərin bu işə yaxşı töhfə verə biləcəyini vurğulayıb. Dövlətimizin başçısı səfirə fəaliyyətində uğurlar arzulayıb.

Fövqəladə və səlahiyyətli səfir Milan Ekert ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini bildirib, bu il həm Azərbaycanda, həm də Çexiyada respublika yaranmasının 100 illiyinin qeyd edilməsinin əlamətdar hadisə olduğunu deyib. Səfir vurğulayıb ki, ölkələrimiz arasında diplomatik əlaqələrin qurulmasından keçən 25 il ərzində ikitərəfli münasibətlərimizin inkişafında böyük nəticələr əldə edilib. Milan Ekert səfirlik fəaliyyəti dövründə əlaqələrimizin daha da genişləndirilməsi istiqamətində səylərini əsirgəməyəcəyini bildirib.

## Görkəmli dövlət xadimi Murtuz Ələsgərovun 90 illik yubileyinə həsr olunan beynəlxalq konfrans bölmə iclasları ilə davam edib

Azərbaycan Respublikası Milli Məclisinin, Yeni Azərbaycan Partiyasının və Bakı Dövlət Universitetinin (BDU) birgə təşkilatçılığı ilə görkəmli dövlət xadimi, Əməkdar hüquqşünas, professor Murtuz Ələsgərovun anadan olmasının 90 illik yubileyi münasibətilə BDU-da "Azərbaycanda hüquq elminin müasir inkişaf istiqamətləri və tendensiyaları" mövzusunda keçirilən beynəlxalq elmi-praktiki konfrans bölmə iclasları ilə işini davam etdirib.




AZƏRTAC xəbər verir ki, "Beynəlxalq hüquq", "Konstitusiya hüququ, nəzəriyyə, informasiya hüququ", "İnsan hüquqları", "Cinayət hüququ, cinayət prosesi və kriminalistika" və "Mülki hüquq, mülki proses, əmək hüququ" mövzularında keçirilən bölmə iclaslarında, ümumilikdə, 105 məruzə dinlənilib.

İclaslarda Azərbaycanla yanaşı, Rusiya, Qazaxıstan, Ukrayna, Gürcüstan və digər ölkələrdən alimlər məruzələrlə çıxış ediblər.

Yerli və xarici alimlər çıxışlarında görkəmli professor Murtuz Ələsgərovun hüquq elminin inkişafında böyük xidmətlərindən danışıblar.

Beynəlxalq konfrans oktyabrın 3-də başa çatıb.

## Ədliyyə və məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi diqqət mərkəzindədir




Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, ədliyyə naziri Fikrət Məmmədov Masallı rayonunda Masallı, Cəlilabad və Yardımlı rayonlarından olan vətəndaşların qəbulunu keçirib.



Ədliyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tədbirdən əvvəl Ulu öndər Heydər Əliyevin abidəsi ziyarət edilərək, önünə gül dəstələri qoyulub, əziz xatirəsinə dərin ehtiram ifadə olunub.

Qəbul zamanı hər bir vətəndaş diqqətlə dinlənilərək, qaldırılan məsələlərin bir qismi elə yerindəcə həllini tapıb. Digər müraciətlər üzrə nazirliyin aidiyyəti məsul işçilərinə müvafiq tapşırıqlar verilib.

Bölgə sakinləri onların qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şəraitin yaradılmasına, göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

Səfər zamanı nazir yerli ədliyyə və məhkəmə orqanlarına baş çəkərək fəaliyyəti və iş şəraiti, habelə Azərbaycan brendi olan və ədliyyənin də müvafiq xidmətlər göstərdiyi Masallı "ASAN xidmət" mərkəzinin fəaliyyəti ilə tanış olub. Fikrət Məmmədov ədliyyə işçiləri ilə görüşərək fəaliyyətin təkmilləşdirilməsi, vətəndaşlara qayğılı münasibət göstərilməklə məmnunluğun təmin olunması, neqativ halların yolverilməzliyi, etik davranış qaydalarına və nizam-intizama dönmədən əməl edilməsi ilə bağlı qəti tapşırıqlar verib.

Həmçinin Dünya Bankı ilə birgə həyata keçirilən "Mütərəqqi ədliyyə xidmətləri və müasir məhkəmə infrastrukturu" layihəsi çərçivəsində Masallıda inşa olunan yeni məhkəmə binasının tikintisinin gedişatı ilə tanış olunub. Müasir tələblərə uyğun inşa olunan üç mərtəbədən ibarət məhkəmə binasının vətəndaşlarla hakimlər arasında qeyri-prosessual münasibətlərin qarşısını almaq məqsədilə ictimai və inzibati zonalara bölünməsi, həmçinin elektron məhkəmə informasiya sisteminin tətbiqi ilə bağlı zəruri infrastrukturun quraşdırılması nəzərdə tutulub. Nazir tikinti işlərinin vaxtında və keyfiyyətlə aparılmasına dair müvafiq göstərişlər verib.

Həmin gün ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri Fikrət Məmmədov Şirvan Apellyasiya Məhkəməsinin və onun yurisdiksiyasına daxil olan bölgənin birinci instansiya məhkəmələri sədrlərinin və hakimlərinin iştirakı ilə geniş zona müşavirəsi keçirib.

Ədliyyə Nazirliyinin və Məhkəmə-Hüquq Şurasının aidiyyəti məsul işçilərinin də iştirak etdikləri müşavirədə məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi üzrə görülən tədbirlər, bu sahədə yol verilən nöqsanlar və qarşıda duran vəzifələr müzakirə olunub.

Müşavirədə Azərbaycan Prezidenti İlham Əliyevin ədalət mühakiməsinin səmərəliliyinin artırılması ilə bağlı tapşırıqlarına uyğun olaraq, görülən işlərdən danışan Fikrət Məmmədov məhkəmə sisteminin müasirləşdirilməsini, hakimlərin ən şəffaf seçimini, elektron məhkəmə informasiya sisteminin tətbiqini, yeni məhkəmə bina və komplekslərinin tikilərək istifadəyə verilməsini qeyd edərək, həyata keçirilən tədbirlərin məhkəmə fəaliyyətinin yüksək səviyyədə təmin olunmasına, vətəndaşların müraciət imkanları artırılmaqla məhkəmə sisteminə əlçatanlığın asanlaşdırılmasına və insan hüquqlarının etibarlı təminatına yönəldiyini bildirib.

Qeyd olunub ki, məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi çərçivəsində məhkəmə qərarlarının ədalətliliyinin təmin olunması, şəffaflığın artırılması, korrupsiyanın yolverilməzliyi daim diqqətdə saxlanılır. Ötən dövrdə kobud qanun pozuntularına, korrupsiya hüquqpozmalarına və vətəndaşların haqlı narazılığını doğuran digər nöqsanlara yol verən hakimlər barəsində Məhkəmə-Hüquq Şurasının qərarları ilə ciddi intizam tədbirləri görülüb. Təkcə ötən il qiymətləndirmə nəticəsində 20 hakim, o cümlədən 7 məhkəmə sədrinin səlahiyyətinə xitam verilib, 6 məhkəmə sədri və apelyasiya məhkəməsinin 8 hakimi aşağı işə keçirilib.

Müşavirədə hakimlər tərəfindən bəzi hallarda süründürməçilik, işlərin hərəkətsiz saxlanılması, tərəflərin bərabərliyi və çəkişmə prinsipinin real təmin olunmaması, Hakimlərin Etik Davranış Kodeksinin tələblərinə etinasız yanaşılaraq vətəndaşlarla kobud rəftara yol verilməsi qeyd edilərək belə halların insanların haqlı narazılığına səbəb olduğu bildirilib.

Bununla bağlı məhkəmə hakimiyyətində mənəvi cəhətdən saf hakimlərin təmsil olunmasının zəruriliyi vurğulanıb, hakimlərin fəaliyyətinin prinsipial qiymətləndirilərək hakim adına və nüfuzuna xələl gətirən şəxslərin məhkəmə sistemindən kənarlaşdırılması, eləcə də hakim korpusunun yeni nəsil hüquqşünaslarla komplektləşdirilməsi üzrə işlərin davam etdirildiyi qeyd olunub.

Həmçinin etik davranış qaydalarına dönmədən əməl olunması, vətəndaşların məhkəmələrə etimadının artırılması ilə bağlı qarşıda duran vəzifələr diqqətə çatdırılıb, apelyasiya məhkəmələri tərəfindən prinsipiallığın artırılmasının, qanun pozuntularına ciddi reaksiya verilməsinin, neqativ hallara qarşı barışmaz münasibət göstərilməsinin vacibliyi vurğulanıb.

## "Azərbaycan qeyri-maddi mədəni irs nümunələrinin Dövlət Reyestri" portalının təqdimatı olub





Oktyabrın 3-də Muzey Mərkəzində Mədəniyyət Nazirliyi tərəfindən hazırlanmış "Azərbaycan qeyri-maddi mədəni irs nümunələrinin Dövlət Reyestri" portalının (www.intangible.az) təqdimat mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə layihənin rəhbəri, mədəniyyət naziri Əbülfəs Qarayev portalın yaradılmasının əhəmiyyətindən və məqsədindən söz açıb. Bildirib ki, cəmiyyətimiz və tariximiz üçün əhəmiyyət kəsb edən bu layihə ayrılıqda götürülmüş hansısa fayl, nominasiya şəklində deyil, dövlətimizin strateji xətti kimi qəbul edilməlidir.

Nazir vurğulayıb ki, müharibələrdən əziyyət çəkən ölkələrin həm canlı qurbanları, həm zəbt olunmuş torpaqları, həm də pərdəarxası, gözlə görünməyən itkiləri olur: **"Bu gün təqdim etdiyimiz layihə cəmiyyəti yeni prosesə səsləyir. Gündəlik həyatımızda qeyri-maddi irs barədə düşünmürük, amma kimsə müharibənin vurduğu ziyan haqqında xəbər eşidəndə, bədxah qonşuların hansısa mədəni nümunəmizi öz adlarına çıxarması faktı ilə rastlaşanda bu zaman mütləq dövlətin bu işlə məşğul olan strukturlarını təqsirkar hesab edir. Onlar düşünmürlər ki, bu iş bütün vətəndaşların və cəmiyyətin birgə səyi nəticəsində reallaşmalıdır. Mədəniyyət abidələrimizin, ümumilikdə qeyri-maddi mədəni irsimizin qorunması vətəndaşların şüurunda formalaşmalıdır. Burada artıq hansısa müəssisə, yaxud təşkilatın fəaliyyətini gözləmək yersizdir. Yeni layihə məhz bu amala xidmət edir".**

Qeyd edib ki, mədəni irsin qorunması, ona sahib çıxmaq məsələləri təxminən 10 il bundan əvvəl dünya səviyyəsində bu qədər aktual deyildi. Bu gün qloballaşma dövründə bu məsələ ən aktual və vacib mövzuya çevrilib. UNESCO çərçivəsində keçirilən sessiyalar belə sanki müharibə, döyüş xarakteri daşıyır.

Əbülfəs Qarayev diqqətə çatdırıb ki, dövlətimiz mədəni irsimizin qorunması işinin təməlini qoymasaydı, bu gün maddi nümunələrimiz bu dərəcədə təbliğ olunmayacaqdı: **"Bu istiqamətdə görülən işlərin nəticəsidir ki, bu gün UNESCO-nun müvafiq siyahılarında Azərbaycanın 11 nominasiya faylı qorunur və ölkəmiz təşkilatın "Qeyri-maddi mədəni irsin qorunmasına dair" Konvensiyasına qoşulub".**

Bildirib ki, "Azərbaycan qeyri-maddi mədəni irs nümunələrinin Dövlət Reyestri"nin yaradılması qeyri-maddi mədəniyyət nümunələrini dövlət qeydiyyatına almaq, onların təbliğini təşviq etmək, ermənilər tərəfindən mənimsənilməsinin qarşısını almaq üçün lazımi informativ bazanı formalaşdırmaq ehtiyacından irəli gəlib. Çünki nəsildən-nəslə ötürülən belə nümunələr xalqın uzaq keçmişinə, qədim tarixinə söykənən təcrübə əsasında yaradılır və insanlarda özünəməxsusluq, irsilik hissi formalaşdırmaqla, həm də mədəni müxtəlifliyə xidmət edir.

Əbülfəs Qarayev layihənin ərsəyə gəlməsində Aşıqlar Birliyi, Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC), Milli Azərbaycan Tarixi Muzeyi, Milli İncəsənət Muzeyi, Azərbaycan Xalça Muzeyi, Musiqi Mədəniyyəti Dövlət Muzeyi, Milli Kulinariya Mərkəzi və Dövlət Film Fondunun, eləcə də biblioqrafiyanın hazırlanmasında Milli Kitabxananın fəaliyyətini qeyd edib.

Vurğulayıb ki, layihə ölkəmizdə fəaliyyət göstərən bütün muzey sərvətlərinin qorunması ilə bağlı reyestr planının hazırlanmasını da zəruri edir: **"Artıq bu layihə üzərində işlərə başlanılıb və ilkin format hazırlanıb. Bu gün qloballaşan, informasiya çevikliyi tələb edən zamanda öz milli sərvətlərimizi zərbə altında qoymamaqdan ötrü bütün innovativ vasitələrdən istifadə edərək ölkəmizin milli sərvətlərini müdafiə etməyi bacarmalıyıq".**

Qeyd edib ki, "Azərbaycan qeyri-maddi mədəni irs nümunələrinin Dövlət Reyestri"nin yaradılması Azərbaycan hökumətinin UNESCO-nun "Qeyri-maddi mədəni irsin qorunmasına dair" Konvensiyasından irəli gələn müddəaların həyata keçirilməsi istiqamətində gördüyü işlərin nəticəsidir. Dövlət Reyestrinin elektron portalı ölkəmizin qeyri-maddi mədəni irs nümunələri, onların daşıyıcıları və təşkilatlar haqqında məlumatı, həmçinin mədəniyyət sahəsində qəbul olunmuş milli və beynəlxalq sənədləri, qeyri-maddi irs sahəsindəki ən son yenilikləri, UNESCO siyahısındakı Azərbaycan mədəni irs nümunələrini, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi haqqında lazımi elmi ədəbiyyatı, foto və videomaterialları əhatə edir. Portalda, həmçinin şəhər və rayonları, həmin bölgələrə məxsus qeyri-maddi irs nümunələri haqqında məlumatlar öz əksini tapıb.

Daha sonra nazirliyin muzey işi və mədəni sərvətlərə nəzarət şöbəsinin mədəniyyət sərvətlərinə nəzarət və reyestrlər sektorunun müdiri Yaşar Hüseynli reyestrlə bağlı təqdimatla çıxış edib. Bildirib ki, portal "Əsas səhifə", "Reyestr haqqında", "Reyestr", "Azərbaycan nümunələri UNESCO siyahılarında", "Ermənistanın təcavüzü", "Xəritə", "Xəbərlər", "Təkliflər" və "Əlaqə" bölmələrindən ibarətdir. Portalda ölkəmizin qeyri-maddi mədəni irs nümunələri diyarşünaslıq, folklor və sənətkarlıq olmaqla üç kateqoriyada təqdim edilir. Həmin kateqoriyalara daxil olan məfhumlar siniflərə, növlərə, janrlara və qruplara görə fərqləndirilib. Qeyri-maddi mədəni irs nümunələrinin səhifəsi nümunə haqqında arayışdan, nümunəyə aid foto və videolardan, nümunənin pasportundan, daşıyıcı və təşkilat, nümunənin yayıldığı areal haqqında məlumatlardan ibarətdir. Arayışlar UNESCO-nun tələbləri çərçivəsində tərif (təsvir), təsnifat, tarix və yayıldığı areal əhatə olunmaqla həmin sahə üzrə çalışan elmi mütəxəssislər tərəfindən hazırlanıb.

Təqdimatda çıxış edən Azərbaycan Aşıqlar Birliyinin sədri, Əməkdar elm xadimi, professor Məhərrəm Qasımlı, Milli Kulinariya Mərkəzinin prezidenti Tahir Əmiraslanov portalı yüksək dəyərləndiriblər. Vurğulanıb ki, qeyri-maddi mədəni irsin qorunması təkcə dövlət tərəfindən deyil, cəmiyyət tərəfindən də dəstəklənməli, daim diqqətdə saxlanılmalıdır.

Sonda nazir portalın təkmilləşdirilməsi və xarici dillərə tərcüməsi ilə bağlı təkliflərini verib.

# Ümummilli lider Heydər Əliyev müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusudur

## *3 oktyabr 1993-cü il tarixində Ulu öndər Heydər Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçilməsindən sonra həyata keçirilən siyasi kurs dövlətimizin gerçək müstəqilliyini təmin etdi*

*Müstəqil Azərbaycan dövləti hazırkı inkişaf mərhələsinə asan yolla çatmayıb. 1991-ci ildə yenidən müstəqillik əldə etdikdən sonra müxtəlif sosial-iqtisadi, siyasi problemlərlə üzləşən, vətəndaş müharibəsinin astanasında olan Azərbaycan, hətta öz müstəqilliyini itirmək təhlükəsi ilə qarşılaşdı, ölkədə ictimai-siyasi gərginlik daha da dərinləşərək anarxiya həddinə çatdı. Bu vəziyyət 1993-cü ilə qədər davam etdi. 1993-cü ilin iyununda Ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə gəlməsindən sonra ölkəmizdə xaotik proseslərin qarşısı alındı - ictimai-siyasi sabitlik təmin edildi. Ümumiyyətlə, bu, bir həqiqətdir ki, Azərbaycan xalqı və dövlətinin tarixin səhnəsində özünəməxsus yer tutmasını, gerçək müstəqilliyini əldə edərək qoruyub saxlamasını təmin edən dahi şəxsiyyət, əbədiyaşar lider, Ulu öndər Heydər Əliyev olmuşdur.*

Ölkəmizdə ictimai-siyasi sabitliyin qorunmasının, mövcud iqtisadi inkişafın, hərtərəfli tərəqqinin təməlində Ümummilli lider Heydər Əliyevin inkişaf strategiyası, Onun müəyyənləşdirdiyi daxili və xarici siyasət xətti dayanır. Ümumiyyətlə, Ulu öndər Heydər Əliyevin həm SSRİ dönəmində, həm də müstəqillik illərində ölkəmizə rəhbərliyi dövründə xalqın rifah halının daha da yaxşılaşdırılması, respublikamızın tərəqqisinin təmin olunması və digər istiqamətlərdə tarixi əhəmiyyətə malik olan misilsiz işlər görülüb. Yəni Ulu öndər Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısındakı tarixi xidmətləri Onun fəaliyyətinin bütün mərhələlərini əhatə edir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 21-də Milli Məclisdə Azərbaycan parlamentinin 100 illiyi münasibətilə təntənəli iclasda çıxışı zamanı bu məqamlara toxunaraq deyib ki, Heydər Əliyevə Azərbaycan xalqının rəğbəti, dəstəyi həmişə çox böyük olmuşdur: **“Bunun əsas səbəbi ondan ibarətdir ki, O, Azərbaycana sovet dövründə rəhbərlik edən zaman respublikamızın uğurlu inkişafına təkan vermişdi. O vaxt Azərbaycan sovet məkanında 15 respublikadan fərqlənirdi, çünki Rusiyadan başqa cəmi iki respublika donor kimi fəaliyyət göstərirdi, onlardan biri Azərbaycan idi. Azərbaycan ən geridə qalmış yerdən Heydər Əliyevin dövründə, 1980-ci illərin əvvəllərində ən qabaqcıl yerlərə çıxmışdır və insanların rifah halı böyük dərəcədə yaxşılaşmışdır. Digər səbəblər isə ağır günlərdə Heydər Əliyevin cəsarətli addımları ilə bağlıdır. 20 Yanvar faciəsindən sonra O, dərhal sovet hökumətinin Azərbaycan xalqına qarşı törətdiyi cinayəti rəsmən pislədi, Kommunist Partiyasından çıxdı və Azərbaycan xalqı Onun simasında liderini gördü. Ondan sonrakı dövr Naxçıvan Muxtar Respublikası ilə bağlıdır. Azərbaycan Xalq Cümhuriyyətinin bayrağının məhz Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvanın Ali Məclisinin iclasında rəsmi dövlət bayrağı kimi tanınması tarixi hadisə idi. Deyə bilərəm ki, bu, müstəqilliyə aparan önəmli addımlardan biri idi”.**

### ULU ÖNDƏR HEYDƏR ƏLİYEV AZƏRBAYCAN XALQININ VƏ DÖVLƏTİNİN XİLASKARIDIR

Ulu öndər Heydər Əliyev Azərbaycan xalqının və dövlətinin xilaskarı olmasını ölkəmizin müstəqilliyini qoruyub saxlamaqla və yeni inkişaf üfüqləri açmaqla sübuta yetirib. Məlum olduğu kimi, müstəqilliyin ilk illərində respublikamızda xaos, anarxiya yaranmış və daxili çəkişmələr özünün pik nöqtəsinə çatmışdı. Azərbaycan vətəndaş müharibəsi və parçalanmaq təhlükəsinin astanasında olarkən xalqımız 1993-cü ildə Azərbaycan dövlətini xilas etmək üçün Ümummilli lider Heydər Əliyevə üz tutdu. O zaman ölkəyə “rəhbərlik” edən qüvvələr də Azərbaycanı məruz qoyduqları təhlükədən xilas etmək üçün Ulu öndər Heydər Əliyevin Bakıya gəlməsini yeganə çıxış yolu kimi dəyərləndirirdilər. Beləliklə, iyunun 9-da Ulu öndər Heydər Əliyevin Naxçıvandan Bakıya gəlişi Azərbaycanın taleyi ilə bağlı narahatlıqlara son qoydu. Bu qayıdış xalqımızı fəlakətdən xilas etdi. Ümummilli liderin Bakıya gəlməsi xəbəri xalq tərəfindən sevinclə qarşılandı. 1993-cü il iyunun 15-də isə Ümummilli lider Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçildi. Tariximizə Milli Qurtuluş Günü kimi daxil olan 1993-cü il iyunun 15-də Ümummilli lider Heydər Əliyevin Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçilməsi ölkəmizin siyasi tarixində keyfiyyətcə yeni bir mərhələnin başlanğıcı oldu. Azərbaycanın mürəkkəb kataklizmlərlə müşayiət edilən daxili siyasi böhrandan qurtulması məhz bundan sonra mümkün oldu. Ümummilli lider Heydər Əliyevin adı ilə bağlı olan Milli Qurtuluş Günü Azərbaycan tarixinin şanlı qürur səhifəsinə çevrildi. Prezident İlham Əliyev bəhs olunan çıxışı zamanı diqqətə çatdırıb ki, bütün dövrlərdə Heydər Əliyev xalqla birlikdə idi: **“Məhz buna görə ağır günlərdə, faciəvi günlərdə Azərbaycan xalqı Ona müraciət etmişdir. 1993-cü il iyunun 15-də bu salonda parlamentin iclasında Heydər Əliyev Azərbaycan parlamentinin Sədri vəzifəsinə seçilmişdir. Bir daha demək istəyirəm ki, müasir tariximizdə bu, dönüş nöqtəsi idi. Ondan sonra vəziyyət sabitləşməyə doğru getməyə başladı, vətəndaş müharibəsinə son qoyuldu, qanunsuz silahlı birləşmələr tərk-silah edildi, nizami ordu quruculuğu istiqamətində önəmli addımlar atıldı, Azərbaycan beynəlxalq təcriddən çıxa bildi. Çünki o vaxta qədər dünyadakı erməni lobbisi belə bir təsəvvür yaratmışdı ki, guya Azərbaycan təcavüzkar dövlətdir və Azərbaycan Ermənistana qarşı təcavüz edir. Halbuki bizim torpaqlarımız işğal altına düşürdü”.**

Sadalananların qanunauyğun nəticəsi kimi, 1993-cü il oktyabrın 3-də ölkəmizdə keçirilən prezident seçkilərində Ümummilli lider Heydər Əliyev xalqımızın böyük əksəriyyətinin etimadını qazanaraq 98,84 faiz səslə Azərbaycan Respublikasının Prezidenti seçildi. Bundan sonra Ulu öndər Heydər Əliyevin gərgin fəaliyyəti və səyləri sayəsində ölkəmizdə ictimai-siyasi sabitlik təmin edildi və sosial-iqtisadi vəziyyət yaxşılaşdırıldı. Ən əsası, 1994-cü il mayın 12-də cəbhədə atəşkəsin əldə edilməsindən sonra dövlətçiliyin möhkəmləndirilməsi, nizami ordu quruculuğu, eləcə də ölkə həyatının bütün sahələrində dinamik inkişafın təmin edilməsi baxımından zəruri addımlar atıldı. Reallaşdırılan ardıcıl və sistemli tədbirlərin nəticəsi kimi, ölkədə əmin-amanlıq yarandı, sabitlik bərqərar oldu, azad bazar iqtisadiyyatına keçidlə bağlı özəlləşdirməyə geniş meydan verildi, genişmiqyaslı islahatlara başlandı. 1994-cü il sentyabrın 20-də isə Azərbaycanın ən yeni tarixində dönüş nöqtəsi olan neft müqavilələri imzalandı. “Əsrin müqaviləsi” adlandırılan bu Saziş ölkəmizin gələcək inkişafına və təhlükəsizliyinə etibarlı zəmin yaratdı, Azərbaycanın dünya xəritəsindəki mövqeyini möhkəmləndirdi.




### UĞURLU DÖVLƏT QURUCULUĞU AZƏRBAYCANIN MÜSTƏQİLLİYİNİ MÖHKƏMLƏNDİRDİ

Ümummilli lider Heydər Əliyev müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusudur. Ulu öndərin xalqımız və dövlətimiz qarşısındakı misilsiz xidmətlərindən biri də uğurlu dövlət quruculuğu prosesinin əsasının qoyulmasıdır. Bu, Azərbaycanın müasir müstəqil dövlət kimi inkişafı baxımından çox mühüm əhəmiyyətə malikdir. Təkmil siyasi sistemin, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu prosesinin, siyasi mədəniyyətin əsasının qoyulması, davamlı siyasi-hüquqi islahatların həyata keçirilməsi, eyni zamanda, milli həmrəylik və bütövlüyü təmin edən ideologiyanın yaradılması bu kontekstdə xüsusilə vurğulanmalıdır. Bununla yanaşı, Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin fonunda ölkənin siyasi-hüquqi sistemində müsbət mənada əsaslı dəyişikliklər oldu. Müstəqil Azərbaycan Respublikasının Konstitusiyasının qəbul edilməsi, qarışıq seçki sistemi əsasında parlament seçkilərinin keçirilməsi dövlətin hüquqi əsaslarının gücləndirilməsi, başqa sözlə, müasir dövlətçilik sisteminin bərqərar edilməsi üçün möhkəm hüquqi baza yaratdı. Kütləvi informasiya vasitələri üzərində senzura aradan qaldırıldı, insan və vətəndaş hüquq və azadlıqları yüksək səviyyədə təmin edildi. Öz fəaliyyətini Azərbaycanın hərtərəfli inkişafına həsr edən Ulu öndər Heydər Əliyev, eyni zamanda, dövlətin hüquqi bazasının möhkəmləndirilməsi istiqamətində növbəti addımlarını atdı. Məhkəmə islahatlarının həyata keçirilməsi, Konstitusiya Məhkəməsinin və digər mühüm təsisatların yaradılması ölkədə demokratikləşmə prosesinin irəliyə aparılmasında mühüm rol oynadı. Azərbaycanda hüquqi, demokratik və dünyəvi dövlət quruldu, vətəndaş cəmiyyətinin bərqərar edilməsi istiqamətində ciddi addımlar atıldı. Bu kontekstdə Ombudsman təsisatının yaradılması, ölüm hökmünün ləğv edilməsi kimi islahat xarakterli addımlar da xüsusi vurğulanmalıdır.

Milli ideologiyanın yaradılması da Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət quruculuğu siyasətinin mühüm tərkib hissəsindən biridir. Məlum olduğu kimi, Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin müəllifi olduğu azərbaycançılıq ideologiyası təkcə bu dövlətin ərazisində yaşayan şəxsləri yox, eyni zamanda, bütün dünyada məskunlaşan azərbaycanlıları əhatə edən, dünya azərbaycanlılarını vahid mərkəzdə birləşdirən milli məfkurəyə çevrildi. Şübhəsiz, Ümummilli lider Heydər Əliyevin müəllifi olduğu dövlət quruculuğu siyasətinin fonunda görülən işlərin və əldə edilən nailiyyətlərin sayını istənilən qədər artırmaq olar. Amma təkcə sadalananlar da onu deməyə əsas verir ki, Ulu öndər Heydər Əliyev Azərbaycanı, sözün əsl mənasında, müstəqil ölkəyə çevirdi, müstəqilliyimizi daimi və dönməz etdi. Yeri gəlmişkən, mayın 28-də Heydər Əliyev Mərkəzində Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibətilə rəsmi qəbulda çıxış edən Prezident İlham Əliyev bildirib ki, 1993-cü il tariximizdə dönüş nöqtəsi olmuşdur: **“Əslində, bizim müstəqil tariximiz o ildən başlamışdır. Çünki 1991-1993-cü illərdə müstəqillik formal, şərti xarakter daşıyırdı. Azərbaycan, demək olar ki, xaricdən idarə olunurdu. Biz hamımız bunu yaxşı bilirik. Ona görə Azərbaycan xalqı haqlı olaraq Heydər Əliyevi Azərbaycanın dövlət müstəqilliyinin banisi, Azərbaycan dövlətinin qurucusu kimi tanıyır və bu, tarixi həqiqətdir”.**

Bütün bunların nəticəsidir ki, müstəqil Azərbaycan 1993-cü ildən bu günə qədər inkişaf yolunda əmin addımlarla irəliləyir, möhtəşəm nailiyyətlər əldə edərək yeni zirvələr fəth edir. Dövlətimizin başçısının vurğuladığı kimi: **“1993-cü ildən başlayaraq bu günə qədər Azərbaycan, sözün əsl mənasında, müstəqil həyat yaşayır. Dövlətçiliyin əsasları qoyuldu, müstəqil dövlətin Konstitusiyası qəbul edildi, milli ideologiyamız qəbul olundu, azərbaycançılıq məfkurəsi bu gün bizim ideoloji əsaslarımızı təşkil edir. Siyasi islahatlar aparılmağa başlamışdır, demokratik inkişafla bağlı önəmli qərarlar, qanunlar qəbul edilmişdir. İqtisadi sahədə liberallaşma siyasəti aparılmağa başlamışdır və bazar iqtisadiyyatına keçid məhz Heydər Əliyevin təşəbbüsü ilə baş vermişdir”.**

### AZƏRBAYCAN BEYNƏLXALQ ARENADA MÜSTƏQİL DÖVLƏT KİMİ TANINDI, SƏMƏRƏLİ İKİTƏRƏFLİ VƏ ÇOXTƏRƏFLİ XARİCİ ƏLAQƏLƏR QURULDU

Qeyd edilənlərlə yanaşı, Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu praqmatik və balanslaşdırılmış xarici siyasət kursu nəticəsində Azərbaycanın beynəlxalq əlaqələri genişlənməyə başladı. Yeni Azərbaycan uğurlu xarici siyasət həyata keçirərək öz beynəlxalq mövqeyini möhkəmləndirmiş oldu. Ölkəmiz beynəlxalq arenada müstəqil dövlət kimi tanındı, ikitərəfli və çoxtərəfli səmərəli xarici əlaqələr quruldu. “Əsrin müqaviləsi”nin imzalanmasından sonra Azərbaycan iqtisadiyyatında dönüş yarandı və genişmiqyaslı işlərə başlandı. Daha sonra Azərbaycan neftinin dünya bazarlarına nəqli istiqamətində müstəsna əhəmiyyət kəsb edən tədbirlər görüldü və mühüm əməkdaşlıq layihələri gerçəkləşdirildi.

Ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulan xarici siyasət kursunun mühüm prioritetlərindən birini Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları əsasında, yəni ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll edilməsi təşkil edir. Məhz Ümummilli lider Heydər Əliyevin gərgin əməyi və ardıcıl səyləri nəticəsində bu problemin həllinə yönəlik məqsədyönlü, sistemli və davamlı addımlar atıldı, məsələnin mahiyyəti dünya ictimaiyyətinin diqqətinə çatdırıldı. Ulu öndər Heydər Əliyev bir çox dünya dövlətləri ilə bu mövzuda danışıqlar apararaq beynəlxalq tədbirlərdə, o cümlədən sammitlərdə Azərbaycanın ərazi bütövlüyünün dəstəkləndiyi və Ermənistanın işğalçılıq siyasətinin pisləndiyi qətnamələrin və bəyanatların qəbul olunmasına nail oldu.

Bütövlükdə, milli maraqlara əsaslanan uğurlu xarici siyasət Azərbaycanın beynəlxalq mövqeyini möhkəmləndirdi, Azərbaycan etibarlı tərəfdaş kimi tanınmağa başladı.

### MÜASİR MÜSTƏQİL AZƏRBAYCAN ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN İDEYALARI ƏSASINDA İNKİŞAF EDİR

Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Başqa sözlə, bu gün müasir müstəqil Azərbaycan Ümummilli lider Heydər Əliyevin ideyaları əsasında inkişaf edir. Son 15 ildə Azərbaycanda Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasət nəticəsində bütün sahələrdə möhtəşəm nailiyyətlər əldə edilib. Təsadüfi deyil ki, ölkəmizin iqtisadi nailiyyətləri beynəlxalq miqyasda da təqdir olunur - yüksək qiymətləndirilir. Nüfuzlu beynəlxalq reytinq agentliklərinin hesabatlarında yer alan məqamlar ölkəmizdə həyata keçirilən sosial-iqtisadi siyasətin müsbət nəticələrini əks etdirir.

Bunlarla yanaşı, çoxvektorlu, tarazlaşdırılmış və milli maraqlara əsaslanan xarici siyasət kursunun qanunauyğun nəticəsi kimi, Azərbaycanın beynəlxalq mövqeyi mütəmadi olaraq möhkəmlənib. Cənubi Qafqaz regionunun lider dövləti olan Azərbaycan müasir beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş kimi tanınır. Respublikamızın moderatorluğu və təşəbbüsü ilə strateji əhəmiyyətli layihələr reallaşdırılır, Azərbaycan Avrasiyanın enerji və nəqliyyat xəritəsini yaradır. Yeni ölkəmiz regional və beynəlxalq təhlükəsizliyə, əməkdaşlığa çox mühüm töhfələr verir. Azərbaycanı fərqləndirən ən mühüm və səciyyəvi keyfiyyətlərdən biri müstəqil siyasətin həyata keçirilməsidir. Azərbaycanın xarici siyasəti həm müstəqil xarakter daşıyır, həm də beynəlxalq hüquq normalarına və prinsiplərinə söykənir, ikitərəfli, çoxtərəfli münasibətlərin ruhuna - mahiyyətinə əsaslanır. Prezident İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibətilə rəsmi qəbulda çıxışı zamanı bu məqamlara toxunaraq deyib ki, 2003-cü ildən sonra Azərbaycanın dinamik inkişafı təmin edilmişdir: **“Biz güclü, qüdrətli dövlət qura bilmişik. Bu gün Azərbaycan, sözün əsl mənasında, müstəqil siyasət aparan ölkədir. Bu gün dünya xəritəsində belə ölkələrin sayı o qədər də çox deyil. Xüsusilə biz ərazisi, əhalisi o qədər də böyük olmayan ölkələrə fikir versək, görərik ki, müstəqil siyasət aparmaq iqtidarında olan ölkələr o qədər də çox deyil. Biz tam müstəqil siyasət aparırıq. Bizim siyasətimiz milli maraqlar üzərində qurulubdur. Azərbaycan xalqının maraqları bizim siyasətimizin mənbəyidir, onun əsasıdır. Kənardan bizim siyasətimizə təsir etmə imkanları sıfıra bərabərdir. Bunu yaxın tarix göstərib. İndi deyə bilərəm ki, belə cəhdlər də yoxdur. Ona görə ki, biz prinsipial siyasət aparırıq. Bu siyasət Azərbaycan xalqı tərəfindən dəstəklənir və müdafiə olunur. Xalq-iqtidar vəhdəti bizim uğurlarımızın əsas səbəbidir”.**

Bütövlükdə, bu gün ölkəmiz dayanıqlı inkişafa, möhkəm ictimai-siyasi sabitliyə malikdir və Azərbaycan çoxəsrlik tarixində heç vaxt indiki qədər güclü, qüdrətli olmayıb.

**“Yeni Azərbaycan”ın Analitik Qrupu**

# Şamaxı Astrofizika Rəsədxanasında BDU və AMEA-nın birgə səyyar iclası keçirilib

*Akademik Abel Məhərrəmov iclasda Azərbaycanda innovativ elmi istiqamət olan nanotexnologiya sahəsində aparılan tədqiqatlar, nəticələr və perspektivlərdən danışıb*





Oktyabrın 3-də Şamaxı Astrofizika Rəsədxanasında Bakı Dövlət Universiteti (BDU) Elmi Şurasının və Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Rəyasət Heyətinin birgə səyyar iclası keçirilib. AMEA-nın prezidenti, akademik Akif Əlizadə tədbir iştirakçılarını iclasın gündəliyi ilə tanış edib. Sonra Akif Əlizadə akademik Sudeif İmamverdiyevə Azərbaycan Respublikasının “Şərəf” ordenini təqdim edib.



### BDU-DA NANOTEXNOLOGİYA SAHƏSİNDƏ YENİ TƏDRİS PROQRAMLARI, DƏRSLİKLƏR, DƏRS VƏSAİTLƏRİ, MONOQRAFİYALAR HAZIRLANIB

AZƏRTAC xəbər verir ki, iclasda BDU-nun rektoru, akademik Abel Məhərrəmov “Azərbaycanda nanotexnologiya sahəsində aparılan tədqiqatlar, nəticələr və perspektivlər” mövzusunda elmi məruzə ilə çıxış edib. O, Prezident İlham Əliyevin Bakı Dövlət Universitetinin 100 illik yubileyinin keçirilməsi haqqında Sərəncamını xatırladaraq, AMEA-nın yubileylə bağlı tədbirlər planını təsdiq etdiyini və məruzəsinin yubiley ərəfəsində hesabat olduğunu diqqətə çatdırıb.



Prezident İlham Əliyevin 2004-cü il oktyabrın 4-də Rumıniyaya rəsmi səfəri zamanı iki ölkənin universitetləri arasında nanotexnologiya istiqamətində müqavilə imzalandığını deyən akademik Abel Məhərrəmov, dövlətimizin başçısının göstərişinə əsasən bir il sonra BDU-da Nano Araşdırmalar Mərkəzinin, ardınca “Nanomaterialların kimyəvi fizikası” kafedrasının yaradıldığını və dünya elminin bu prioritet istiqaməti üzrə tədqiqatlara başlandığını diqqətə çatdırıb. Qeyd olunub ki, qısa müddətdən sonra bu elmin əsasları universitetin fizika, kimya, biologiya fakültələrinin bakalavr pilləsində tədris edilməyə başlayıb. Eyni zamanda, nanohissəciklərin fizikası, nanomaterialların fiziki kimyası və nanobiotexnologiya ixtisaslaşmalarında magistr hazırlığı aparılıb. Qısa müddətdə bu istiqamətdə kimya və fizika fakültəsindən 12 nəfər fəlsəfə doktoru elmi dərəcəsi üzrə dissertasiya müdafiə edib.

Akademik bildirib ki, nanotexnologiya sahəsində yeni tədris proqramları, dərsliklər, dərs vəsaitləri, monoqrafiyalar hazırlanıb, hətta bəzi dərsliklər ABŞ-ın və Rusiyanın məşhur nəşriyyatlarında və universitetlərində çap edilib.

### BDU-DA NANOTEXNOLOGİYA SAHƏSİNDƏ BİR SIRA İNKİŞAF ETMİŞ ÖLKƏLƏRLƏ TƏTBİQİ XARAKTERLİ BİRGƏ TƏDQİQATLAR APARILIR

Nanotexnologiyanın tətbiq sahələrinin çox böyük diapazonda yerləşdiyinə diqqət çəkən akademik Abel Məhərrəmov BDU-da nanotexnologiyanın texnika, tibb, neft, ekologiya, kənd təsərrüfatı sahəsi və hərbi sənaye istiqamətində araşdırmalarına diqqət çəkib və bunun üçün dəyəri milyonlarla ölçülən cihaz və avadanlıq alındığını söyləyib. Qeyd olunub ki, BDU-da nanotexnologiya sahəsində dünyanın bir sıra inkişaf etmiş ölkələri ilə tətbiqi xarakterli birgə tədqiqatlar aparılır və ABŞ, Rusiya, Yaponiya, İsveçrə, Kanada, İspaniya, İtaliyanın müvafiq universitetləri, bu sahədə olan araşdırma mərkəzləri ilə ümumi dəyəri



8,5 milyon dollar olan qrant layihələri uğurla yerinə yetirilib. Nəticə olaraq 2017-ci ildə “Web of Science” sisteminə daxil olan jurnallarda universitet alimlərinin 247 məqaləsi dərc edilib ki, bu məqalələrdən 37-si nanotədqiqatlar sahəsini əhatə edir.

### NANOTEXNOLOGİYA SAHƏSİNDƏ MULTİDİSSİPLİNAR TƏDQİQATLARIN DAVAM ETDİRİLMƏSİNİN MƏQSƏDƏUYĞUNLUĞU

Məruzə dinlənildikdən sonra AMEA-nın vitse-prezidentləri, akademiklər İbrahim Quliyev, Dilqəm Tağıyev və İradə Hüseynova, AMEA-nın akademik-katibi, akademik Rasim Əliquliyev, Təhsil Nazirliyinin elm, ali və orta ixtisas təhsili şöbəsinin müdiri Yaqub Piriyev, AMEA-nın Biologiya və Tibb Elmləri Bölməsinin akademik-katibi, akademik Əhliman Əmiraslanov, AMEA-nın Fizika-Riyaziyyat və Texnika Elmləri Bölməsinin akademik-katibi, akademik Nazim Məmmədov, akademik Vasif Babazadə və digərləri mövzu ilə bağlı fikirlərini bölüşüblər. Onlar bu elmi istiqamətin dünya elminin prioritet sahələrindən biri kimi əhəmiyyətindən danışıb, respublikada bu istiqamətdə tədqiqatların məqsədəuyğunluğu və vacibliyini qeyd ediblər. Eyni zamanda, respublikada nanomateriallar sahəsində aparılan tədqiqatların əlaqələndirilməsi və elmi araşdırmaların hazırkı vəziyyətini müəyyənləşdirilməsi məqsədilə AMEA, BDU və bu istiqamətdə tədqiqat aparan digər strukturlarla birlikdə dövlət qurumlarına təqdim etmək üçün meqalayihənin hazırlanması qərara alınıb. Qərara əsasən akademik Abel Məhərrəmovun təqdim etdiyi məruzə bəyənilib və innovativ elm sahəsi olan nanotexnologiyanın əhəmiyyətini nəzərə alaraq, aparılan multidissiplinar tədqiqatların davam etdirilməsi məqsədəuyğun hesab olunub. Həmçinin qərarda respublikada nanomateriallar sahəsində aparılan tədqiqatların əlaqələndirilməsi və elmi araşdırmaların hazırkı vəziyyətini müəyyənləşdirmək məqsədilə AMEA, BDU və bu istiqamətdə tədqiqat aparan digər müəssisələrlə prioritet istiqamətlər üzrə müştərək meqalayihənin hazırlanması üçün işçi qrupun yaradılması yer alıb.

Tədbirdə müzakirəyə çıxarılan ilk elmi-təşkilati məsələ AMEA-nın elmi müəssisələrində 2018-ci ildə aparılmış tədqiqat işlərinin yekunlarına dair hesabatlarla bağlı olub. Akademik Akif Əlizadə hesabatların işlənməsi üçün metodiki təlimatın hazırlandığını vurğulayaraq, hesabatların müəyyən olunmuş formalarda Rəyasət Heyəti aparatının müvafiq idarə və şöbələrinə təqdim etməyi tapşırıb.

Gündəlikdə yer alan növbəti məsələ AMEA-nın “Xızı” Kənd Təsərrüfatı İstehsalat Kompleksinin torpaq sahəsindən səmərəli istifadə edilməsi haqqında olub. Rəyasət Heyəti məsələ ilə bağlı müzakirə aparıb. AMEA-nın bağçılıq-bostançılıqla məşğul olmaq istəyən əməkdaşlarına müvəqqəti istifadə üçün torpaq sahələrinin ayrılması məqsədəuyğun hesab edilib. Bununla bağlı təkliflərə baxılması üçün komissiya yaradılıb.

Digər qərarla AMEA Rəyasət Heyəti və AMEA Azad Həmkarlar İttifaqının Rəyasət Heyəti arasında 2018-2020-ci illər üzrə kollektiv Saziş təsdiq edilib.

### BDU-NUN ASTROFİZİKA KAFEDRASININ ŞAMAXI ASTROFİZİKA RƏSƏDXANASINDA FİLİALI AÇILIB

İclasda, həmçinin AMEA əməkdaşlarının sosial təminatının yaxşılaşdırılması istiqamətində fəaliyyətin tərkib hissəsi olaraq onların istirahətinin səmərəli təşkili üçün binalardan istifadə edilməsi məqsədilə müvafiq tədbirlərin həyata keçirilməsi qərara alınıb.

Rəyasət Heyəti AMEA-nın magistrant və doktorantlarının tədris müddəti ərzində yaşayış yeri ilə təmin edilməsi və bu istiqamətdə təşkilati məsələlərin həlli məqsədilə də tapşırıq verib.

Bundan əlavə, qərarla AMEA-nın Neft və Qaz İnstitutu, Torpaqşünaslıq və Aqrokimya İnstitutunun strukturunda qismən dəyişiklik edilib. Həmçinin AMEA-nın akademik Abdulla Qarayev adına Fiziologiya İnstitutunda İmmunofiziologiya və eksperimental transplantologiya laboratoriyası yaradılıb.

Rəyasət Heyəti AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun nəzdində Antropologiya Mərkəzinin yaradılması məsələsini müzakirə edərək təsdiq edib.

Daha sonra kadr məsələlərinə baxılıb.

Sonda Bakı Dövlət Universiteti Astrofizika kafedrasının Şamaxı Astrofizika Rəsədxanasında filialı və rəsədxana ərazisində akademiyanın əməkdaşlarının asudə vaxtlarını səmərəli keçirmələri üçün istirahət mərkəzi açılıb.

# Milli Məclisin İnsan hüquqları komitəsinin iclası keçirilib





Oktyabrın 3-də Milli Məclisin İnsan hüquqları komitəsinin iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, Milli Məclis sədrinin müavini, İnsan hüquqları komitəsinin sədri Bahar Muradova Azərbaycan Xalq Cümhuriyyətinin və Parlamentin 100 illiyi ilə bağlı ölkəmizdə çoxsaylı tədbirlərin keçirildiyini deyib. Bildirib ki, sentyabrın 21-də 44 ölkənin nümayəndələrinin iştirakı ilə keçirilən möhtəşəm yubiley tədbiri Prezident İlham Əliyevin iştirakı, buradan Milli Məclisin deputatlarına, qonaqlara, bütün dünyaya çox ciddi mesajlar verməsi ilə yadda qaldı. Prezident İlham Əliyevin parlamentin 100 il ərzində keçdiyi yola, Azərbaycanın bugünkü sürətli dinamik inkişaf prosesində Milli Məclisin roluna verdiyi qiymət hər birimizi ruhlandırır və fəaliyyətimizi daha da genişləndirməyə sövq edir.

Bahar Muradova vurğulayıb ki, oktyabrın 3-ü Azərbaycan xalqının taleyində böyük əhəmiyyətə malik çox əlamətdar günlərdən biridir. **“1993-cü il oktyabrın 3-də ölkəmizdə keçirilən prezident seçkilərində Heydər Əliyev xalqımızın böyük əksəriyyətinin etimadını qazandı və Azərbaycan dövlətini qurmaq, inkişaf etdirmək və hər bir Azərbaycan vətəndaşının rifah halının yaxşılaşdırılmasını təmin etmək üçün çox böyük bir vəzifəyə başladı”,** - deyə Milli Məclis sədrinin müavini qeyd edib.

Daha sonra gündəlikdəki məsələlərə baxılıb.

Əvvəlcə Bahar Muradova Milli Məclisin 2018-ci ilin yaz və növbədənkənar sessiyalarında komitədə görülən işlər barədə məlumat verib. Bildirilib ki, hesabat dövründə komitənin 6 iclası keçirilib, 10 məsələyə baxılıb, 8 qanun layihəsində dəyişikliklər müzakirə olunub və Milli Məclisin plenar iclasına tövsiyə edilib. Ötən dövr ərzində komitəyə 552 sənəd daxil olub, onlardan 506-sı əlaqədar təşkilatlara göndərilib.

İclasda komitənin 2018-ci il yaz sessiyası dövründə fəaliyyəti qənaətbəxş hesab edilib, 2018-ci il payız sessiyası üçün iş planına baxılıb və təsdiq olunub.

Sonra “Uşaqların zərərli informasiyadan qorunması haqqında” qanun layihəsi ikinci oxunuşda müzakirə edilib. Beş fəsil, on doqquz maddədən ibarət qanun layihəsində uşaqların informasiya əldə etməsi, ailə institutunu nüfuzdan salan informasiya, həmçinin informasiya məhsulunun yaş təsnifatı, zorakılığın və qəddarlığın nümayişi və digər bu kimi anlayışların izahatı verilir.

Layihədə müvafiq maddəyə əsasən uşaqların mənafelərinin üstün tutulması, onların hüquq və azadlıqlarının təmini, uşaqların həyat və sağlamlığı üçün təhlükəsiz olan, onların hərtərəfli inkişafını və sosiallaşmasını təmin edən informasiya məhsullarının dövriyyəsinə şəraitin yaradılması, zorakılığın, qəddarlığın, narkotik vasitələrin və psixotrop maddələrin, alkoqollu içkilərin və tütün məmulatlarının, cəmiyyət əleyhinə davranışın, pornoqrafik xarakterli informasiyanın təbliğinin yolverilməzliyi uşaqların zərərli informasiyadan qorunması sahəsində əsas prinsiplərdir. Həmçinin zərərli informasiya məhsullarının dövriyyəyə daxil edilməsinin, o cümlədən informasiya texnologiyalarından istifadə etməklə uşaqlara qarşı törədilən hüquqpozmaların qarşısının alınması, uşaqların zərərli informasiyalardan qorunması sahəsində beynəlxalq əməkdaşlığın həyata keçirilməsi də bu prinsiplərə daxildir.

Qanun layihəsinin üçüncü fəslində informasiya məhsulunun işarələnməsi, informasiya məhsulunun işarələnməsinin xüsusiyyətləri, informasiya məhsullarının telekommunikasiya şəbəkələri vasitəsilə yayımının xüsusiyyətləri, teleradio yayımı vasitəsilə yayımlanan informasiya məhsuluna, uşaqlar üçün nəzərdə tutulan informasiya məhsullarının dövriyyəsinə, uşaq üçün qadağan olunan informasiya məhsullarının dövriyyəsinə dair əlavə tələblər öz əksini tapır.

Sənəddə bildirilir ki, “18+” yaş kateqoriyasına aid informasiya məhsulu teleradio vasitəsilə yayımlanarkən bu informasiya məhsulunun yaş kateqoriyası haqqında xəbərdarlıq televiziya yayımı zamanı işarə, radioyayım zamanı isə səsləndirmə ilə həyata keçirilməlidir.

Uşaqlar üçün kino və video xidmətlərin göstərilməsi zamanı, uşaq teleradio proqramlarında və verilişlərində, uşaq üçün nəzərdə tutulmuş dövri mətbu nəşrlərdə yayılan reklam onun yerləşdirildiyi informasiya məhsulunun yaş kateqoriyasına uyğun olmalıdır.

Deputatlar qanun layihəsi ilə bağlı fikir və təkliflərini səsləndiriblər. Qanun layihəsi Milli Məclisin plenar iclasına tövsiyə edilib.

# Bakıda Dünya Türklərinin Həmrəylik Günü qeyd olunub



Oktyabrın 3-də Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi, “Müasir İnkişaf” və “Gənclərin Töhfəsi” İctimai birlikləri tərəfindən Dünya Türklərinin Həmrəylik Günü münasibətilə tədbir keçirilib.

AZƏRTAC xəbər verir ki, Rəşid Behbudov adına Dövlət Mahnı Teatrında keçirilən tədbirdə əvvəlcə Xalq artisti Azərinin ifasında “Ey Turanım!” mahnısı səsləndirilib. Sonra səhnəyə türkdilli ölkələrin dövlət bayraqları gətirilib.

Milli Məclisin deputatı, “Yeni Azərbaycan” qəzetinin baş redaktoru Hikmət Babaoğlu çıxış edərək türkdilli dövlətlərin tarixindən danışıb. O, bir çox xalqların tarixin səhifələrindən silindiyi halda türk xalqlarının inkişaf yolu keçdiyini vurğulayaraq deyib: **“Türkdilli xalqlar dünyaya sülh, rifah, ədalət, inkişaf gətiriblər. XXI əsrdə türkdilli dövlətlər qarşısında yeni missiyalar ortaya çıxarıb. Bu dövlətlər bütövlükdə Avrasiyaya sülh, barış gətirirlər. 1990-cı illərin əvvəllərində türkdilli xalqların birliyinin təbliği üçün mühüm addımlar atılıb. Bu birliyin olması üçün siyasi iradə lazım idi və bu proses uğurla davam etdirildi. Azərbaycan Prezidenti İlham Əliyev türkdilli xalqların həmrəyliyinə, birliyinə böyük töhfələr verib”.**



“Müasir İnkişaf” İctimai Birliyinin sədri Mübariz Göyüşlü, “Gənclərin Töhfəsi” İctimai Birliyinin sədri Asim Vəliyev, Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi Raqif Abbasov türkdilli dövlətlərin birliyinin daha da inkişaf etdirilməsi istiqamətində görülən işlərdən söz açıblar.

Sonra tədbir bədii hissə ilə davam edib. Tədbirdə vətənpərvər mahnıların mahir ifaçısı Şəmistan Əlizamanlının, Əməkdar artist Nuriyyə Hüseynovanın ifasında mahnılar səsləndirilib. Bakı Dövlət Universitetinin tələbəsi, “Vətənim Azərbaycan” bədii qiraət müsabiqəsinin qalibi Rauf Əliyevin ifasında “Əzəl axır dünya bizim olacaq”, “Qarabağı verməsəm” şeirləri, Fəda Nəsirlinin və Təhminə Quliyevanın ifasında rəqs nömrəsi, Azərbaycan Alpaqut Federasiyasının idmançılarının nümunəvi çıxışları böyük maraqla qarşılanıb.

Sonra tədbirin fəal iştirakçıları mükafatlandırılıblar.

Qeyd edək ki, türkdilli ölkələrin dövlət başçılarının 2009-cu il oktyabrın 3-də Naxçıvanda keçirilən IX zirvə görüşündə hər il bu tarixin Türk Dövlətlərinin Birliyi Günü - Dünya Türklərinin Həmrəylik Günü kimi qeyd olunması qərara alınıb.

# Azərbaycan nümayəndə heyəti Latviyada keçiriləcək parlament seçkilərini müşahidə edəcək

Latviya oktyabrın 6-da keçiriləcək parlament seçkilərinə hazırlaşır. Seçkilərdə beynəlxalq müşahidəçi qismində 30 ölkədən 60 nümayəndə iştirak edəcək.

AZƏRTAC xəbər verir ki, bu barədə Latviya Mərkəzi Seçki Komissiyasının sədri Arnis Simdars məlumat verib.

Müşahidəçilər Azərbaycan, Belarus, Bolqarıstan, Gürcüstan, Qazaxıstan, Cənubi Koreya, Rusiya, Litva, Moldova, Özbəkistan, Ukrayna və digər ölkələrdən, həmçinin Avropa Təhlükəsizliyi və Əməkdaşlığı Təşkilatındandır. Müşahidəçi qismində olaraq yerli və xarici partiyaların rəhbərləri də iştirak edə bilərlər.

Azərbaycandan Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahovun rəhbərlik etdiyi nümayəndə heyəti və Milli Məclisin deputatı, Azərbaycan-Latviya parlamentlərarası əlaqələr üzrə işçi qrupun rəhbəri Kamran Bayramov seçkiləri izləmək üçün oktyabrın 4-dən 7-dək Riqa şəhərində səfərdə olacaqlar.

Səsvermə prosesi 954 məntəqədə səhər saat 07:00-dan başlayacaq və axşam 20:00-dək davam edəcək.

# Amerika Bibliya Cəmiyyətinin nümayəndəsi ölkəmizdəki dövlət-din münasibətləri barədə məlumatlandırılıb



Oktyabrın 3-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı Amerika Bibliya Cəmiyyətinin Beynəlxalq missiyası departamentinin direktor müavini Çarlz Lambert ilə görüşüb.

Komitədən AZƏRTAC-a bildiriblər ki, görüşdə DQİDK-nın sədri qonağı ölkəmizdəki dövlət-din münasibətləri və multikultural mühit barədə məlumatlandırıb. Bildirib ki, demokratik, dünyəvi və hüquqi dövlət olan Azərbaycanda din dövlətdən ayrı olsa da, bu sahəyə daim diqqət və xüsusi qayğı göstərilir. Ulu öndər Heydər Əliyev siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilən siyasət fundamental azadlıqlardan olan dini etiqad azadlığının qorunmasına, ölkədəki bütün dini icmalara bərabər imkanların yaradılmasına və ölkəmizdə əsrlərboyu formalaşmış tolerantlıq ənənələrinin daha da möhkəmlənməsinə yönəlib.

Azərbaycanda müxtəlif dini konfessiya nümayəndələrinin etnik-mədəni özünəməxsusluğunun qorunub-saxlanması üçün hərtərəfli hüquqi-demokratik şərait yaradıldığını deyən Mübariz Qurbanlı ölkəmizdə 20-si xristian olmaqla 31 qeyri-İslam təmayüllü dini icmanın dövlət qeydiyyatına alındığını, 14 kilsənin fəaliyyət göstərdiyini diqqətə çatdırıb.

Səmimi görüşə görə təşəkkürünü bildirən Amerika Bibliya Cəmiyyətinin nümayəndəsi Çarlz Lambert hər gəlişində Bakının daha da inkişaf etməsinin şahidi olduğunu bildirib. Ölkəmizdəki dinlərarası harmoniya və etnik-dini tolerantlıqdan bəhs edən qonaq "Azərbaycan Bibliya Cəmiyyəti" xristian dini icmasının fəaliyyəti üçün yaradılan yüksək şəraitdən məmnunluğunu ifadə edib.

Sonda qonağa Dövlət Komitəsinin ingilis dilində nəşr etdirdiyi, ölkəmizdəki dini tolerantlıq mühitindən və maddi-mədəni irsimizə qarşı törədilən erməni vandalizmindən bəhs edən kitablar təqdim edilib.

# Pərviz Şahbazov: 2030-cu ilədək Azərbaycanda bərpaolunan enerji mənbələrinin ümumi həcmi 30 faizə çatacaq



Moskvada "Rusiya energetika həftəsi" beynəlxalq forumu açılıb. Forumun gedişində Azərbaycanın energetika naziri Pərviz Şahbazov iştirak edir.

AZƏRTAC xəbər verir ki, nazirlərin iştirak etdiyi "Yanacaq-energetika kompleksinin səmərəli tənzimlənməsi: ümumi yanaşma və ölkələrin fərqi" mövzusunda təşkil olunan sessiyada çıxış edən P.Şahbazov Azərbaycanın son illər dinamik inkişaf etdiyini, 15 il ərzində ölkə iqtisadiyyatının 3,5 dəfədən çox artdığını bildirib. Ölkə iqtisadiyyatına 250 milyard dollardan çox sərmayə qoyulub. Bunların yarısı birbaşa xarici investisiyalardır, 95 milyard dollar neft-qaz sahəsinə sərmayə yatırılıb.

Nazir deyib: **"Biz enerji ehtiyatlarımızın çatdırılma marşrutunu ciddi şaxələndirmişik. Bizim bu sahədə sonuncu nailiyyətimiz dünyada ən iri qaz layihələrindən biri, 3500 kilometr uzunluğunda "Cənub Qaz Dəhlizi" layihəsidir. Bu boru kəməri vasitəsilə biz artıq qonşularımız Gürcüstan və Türkiyəyə qaz çatdırırıq, daha sonra Avropaya nəql edəcəyik. İlkin mərhələdə 16 milyard kubmetr qaz tədarük ediləcək".**

Ölkədə bərpaolunan enerji mənbələrindən danışan nazir qeyd edib ki, 2030-cu ilədək Azərbaycanda bərpaolunan mənbələrin ümumi həcmi 30 faizə çatacaq. **"Bundan ötrü güclü potensial mövcuddur. Biz təşviqetmə mexanizmlərinə cavab verən ciddi qanunvericilik bazası yaratmaq istəyirik. Bərpaolunan mənbələr hesabına generasiya etməyi nəzərdə tutduğumuz zəruri elektrik enerjisini qəbul etməyə imkan olması üçün ötürmə xətlərinin optimallaşdırılması üzrə iş aparırıq",** - deyə P.Şahbazov bildirib. O, görüş iştirakçılarını yeni layihələrin birgə icrası üçün Azərbaycana dəvət edib.

Qeyd edək ki, "Energetika həftəsi" Moskvada oktyabrın 3-dən 6-dək keçirilir. Builki forumda bu sahənin 10 mindən çox nümayəndəsi iştirak edir.

# İstixanalarda və arıçılıq təsərrüfatlarında istehsal edilən məhsullar "Cocuq Mərcanlı" brendi ilə satışdadır





İqtisadiyyat Nazirliyinin və Türkiyənin Azərbaycandakı səfirliyinin birgə həyata keçirdiyi layihələr çərçivəsində artıq Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində yaradılmış istixanalarda və arıçılıq təsərrüfatlarında istehsal edilən məhsulların satışı həyata keçirilir.

İqtisadiyyat Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bununla əlaqədar oktyabrın 3-də Cocuq Mərcanlıda İqtisadiyyat Nazirliyinin təşkilatçılığı və Türkiyənin Azərbaycandakı səfirliyinin, Türk Əməkdaşlıq və Koordinasiya Agentliyinin (TİKA), İqtisadiyyat Nazirliyinin tabeliyində Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin, Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının, Türkiyə və Azərbaycan İş Adamları və Sənayeçilər İctimai Birliyinin (TÜİB), "Ziraat Bank Azərbaycan" ASC-nin nümayəndələrinin və sahibkarların iştirakı ilə tədbir keçirilib.

İqtisadiyyat nazirinin müavini Sahib Məmmədov dövlət başçısının iqtisadi inkişaf kursuna uyğun olaraq, ölkədə qeyri-neft sektorunun inkişafı və iqtisadiyyatın şaxələndirilməsi, biznes mühitinin davamlı olaraq yaxşılaşdırılması və sahibkarlığın inkişafının sürətləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər barədə məlumat verib.

Azərbaycan Prezidentinin yeni həyat bəxş etdiyi Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində birgə layihələrin icrasının Azərbaycan-Türkiyə qardaşlıq əlaqələrinin daha bir nümunəsi olduğunu vurğulayan Sahib Məmmədov belə layihələrin icrasının kəndlərdə məşğulluğun təmin olunmasında, rayonun sosial-iqtisadi inkişafı sahəsində mühüm əhəmiyyətə malik olduğunu qeyd edib, layihə çərçivəsində yaradılmış təsərrüfatlarda istehsal edilən məhsulların artıq "Cocuq Mərcanlı" loqosu altında satışa çıxarıldığını diqqətə çatdırıb.

Türkiyənin Azərbaycandakı səfiri Erkan Özoral və TİKA-nın Bakı nümayəndəliyinin proqram koordinatoru Teoman Tiryaki Türkiyə-Azərbaycan əlaqələrinin uğurla inkişaf etdiyini, Cocuq Mərcanlıda birgə icra olunan layihələrin bölgədə kənd təsərrüfatının inkişafında əhəmiyyətini vurğulayıb, belə layihələrin bundan sonra da reallaşdırılacağını diqqətə çatdırıb.

Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin İdarə Heyətinin sədri Orxan Məmmədov çıxışında kiçik və orta sahibkarlığın inkişafı istiqamətində agentliyin həyata keçirdiyi tədbirlərdən danışıb, Cocuq Mərcanlıda fəaliyyət göstərən sahibkarların dəstək xidmətləri ilə tam əhatə olunacağını bildirib.

Cəbrayıl Rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənov Cocuq Mərcanlıda həyata keçirilən layihələrin kəndin inkişafına və sakinlərin məşğulluğunun təmin edilməsinə mühüm töhfə olduğunu qeyd edib.

Tədbir çərçivəsində "Ərzaq məhsullarının tədarükü və təchizatı" ASC, Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində "Dövlət Aqrar Ticarət Şirkəti" MMC, "Azərsun Holdinq", "Veysəloğlu" şirkətləri Cocuq Mərcanlıda fəaliyyət göstərən istixana və arıçılıq təsərrüfatlarında istehsal edilmiş məhsulların satın alınmasını həyata keçirib. Bu təsərrüfatlardan əldə olunacaq məhsulların satışına dəstək göstərilməsi məqsədilə Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində "Dövlət Aqrar Ticarət Şirkəti" MMC ilə Cocuq Mərcanlı fermerləri arasında əməkdaşlığa dair Anlaşma Memorandumu da imzalanıb.

Tədbir çərçivəsində İqtisadiyyat Nazirliyi tərəfindən Cocuq Mərcanlı kənd orta məktəbinə Neftçala Sənaye Məhəlləsində istehsal olunan "Xəzər" avtomobili hədiyyə edilib.

Cocuq Mərcanlı sakinləri göstərilən böyük diqqət və qayğıya görə dövlət başçısına dərin minnətdarlıqlarını bildiriblər.

Sonra tədbir iştirakçıları istixana və arıçılıq təsərrüfatlarında istehsal edilmiş məhsullarla və suvenir istehsalı müəssisəsinin tikintisi ilə tanış olublar.

Qeyd edək ki, İqtisadiyyat Nazirliyinin və Türkiyənin Azərbaycandakı səfirliyinin birgə həyata keçirdiyi layihələr çərçivəsində Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində hər biri 160 kvadratmetr sahəyə malik 15 ədəd polietilen örtüklü tunel tipli istixanalar qurulub. İstixanalar damcı suvarma sistemi ilə təchiz olunub, istifadəçilərə toxum, gübrə və pestisidlər, bitkilərə qulluq üçün alət və avadanlıqlar verilib. Bundan başqa, Cocuq Mərcanlıda 15 ailənin hər birinə 10 arı ailəsi olmaqla 150 arı ailəsi verilib. Arı təsərrüfatlarının hər biri 10 ədəd ikimərtəbəli iyirmi çərçivəli yeşiklə, arıçılıq avadanlıqları və materiallarla, xəstəliklərə qarşı dərman vasitələri ilə təmin olunub.

# "ASAN xidmət" ilə Vəkillər Kollegiyası arasında anlaşma memorandumu imzalanıb





Oktyabrın 3-də Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə Azərbaycan Respublikasının Vəkillər Kollegiyası arasında əldə olunmuş razılığa əsasən, "ASAN xidmət" və "ASAN Kommunal" mərkəzlərində, habelə səyyar formada hüquqi yardım göstərilməsi ilə bağlı Agentliyin inzibati binasında anlaşma memorandumunun imzalanması mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, sənədi Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev və Azərbaycan Respublikasının Vəkillər Kollegiyasının sədri Anar Bağırov imzalayıblar.

Memoranduma əsasən, "ASAN xidmət" və "ASAN Kommunal" mərkəzlərində və səyyar hüquqi yardım xidmətləri sosial innovasiyaların tətbiqi ilə operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyət və rahatlıq prinsipləri rəhbər tutmaqla göstəriləcək.

Bu istiqamətdə ödənişsiz şifahi hüquqi məsləhətlərin verilməsi, iddia ərizələri və məhkəmə çəkişmələri ilə bağlı digər sənədlərin, dövlət və qeyri-dövlət orqanlarına yazılı müraciətlərin hazırlanması, habelə məhkəmə instansiyalarında təmsilçilik xidmətlərinin göstərilməsi təmin ediləcək.

Həmçinin razılaşmaya əsasən, Dövlət Agentliyinin əməkdaşları və ASAN könüllüləri üçün hüquqi maariflədirmə tədbirlərinin həyata keçirilməsi də nəzərdə tutulur.

Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev deyib ki, "ASAN xidmət" mərkəzləri Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 13 iyul tarixli Fərmanına əsasən yaradılıb. Həmin Fərmanda "ASAN xidmət" mərkəzlərinin göstərilən xidmətlərin konkret siyahısı və növləri verilir. Xidmətlərdən biri də hüquqi yardım xidmətinin təşkili ilə bağlıdır. Ötən illər ərzində bütün "ASAN xidmət" mərkəzlərində vətəndaşlar üçün hüquqi yardım xidmətinin təşkili üçün müvafiq şərait yaradılıb. **"Bu gün isə artıq "ASAN xidmət"ə müraciət edən hər bir vətəndaşa hüquqi yardım xidmətinin göstərilməsi üçün Vəkillər Kollegiyası ilə əməkdaşlıq memorandumu imzalandı. Memorandumun əsas məqsədi Fərmanda tapşırılmış hüquqi yardım xidmətlərinin "ASAN xidmət"də təşkilini təmin etməkdir",** - deyə Ü.Mehdiyev bildirib.

Ülvi Mehdiyev diqqətə çatdırıb ki, hüquqi yardımın vətəndaşlara əlçatan olması üçün "ASAN xidmət" mərkəzi platforma rolunu oynayacaq. Burada vətəndaşlar xidmətlərdən yararlanmaqla yanaşı, həm də zərurət yarandıqda "ASAN xidmət"lərdə yerləşən vəkillik büroları vasitəsilə müxtəlif hüquqi yardımlar ala biləcəklər. Burada sosial həssas qruplar üçün müəyyən hüquqi yardım xidmətləri, şifahi hüquqi məsləhətlərin verilməsi və digər xidmətlər ödənişsiz təşkil olunacaq. Hazırda 13 "ASAN xidmət" mərkəzi mövcuddur. Qarşıdakı illərdə bu say 20-yə qədər artacaq və hər mərkəzdə xüsusi vəkillik büroları fəaliyyət göstərəcək.

Vəkillər Kollegiyasının sədri Anar Bağırov bildirib ki, son dövrdə Azərbaycanda vəkillik sahəsində ciddi islahatlar aparılır. Ölkədə vəkillərin sayı son aylar ərzində xeyli artıb. Bakıda və regionlarda 1500-dən çox vəkil fəaliyyət göstərir. Vəkillər Kollegiyası işini yeni dövrün tələblərinə uyğun şəkildə təmin edir. Bu gün vəkilliyin tarixində də əlamətdar gündür. Çünki bu memorandumun imzalanması ilə artıq vəkillik xidmətləri də asanlaşır. **"Biz öz növbəmizdə ən qısa zamanda bütün "ASAN xidmət" mərkəzlərində müvafiq "ASAN vəkil" bürolarının yaradılmasını təmin edəcəyik. Məqsədimiz - insanların keyfiyyətli, peşəkar hüquqi yardım almaq imkanını təmin etməkdir",** - deyə A.Bağırov diqqətə çatdırıb.

Anar Bağırov qeyd edib ki, dövlətimiz vəkilliyin inkişafına böyük diqqət ayırır. Belə ki, Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında vəkilliyin inkişafı ilə bağlı əlavə tədbirlər" haqqında Sərəncamında Vəkillər Kollegiyasına tövsiyə edilir ki, regionlarda vəkillik fəaliyyəti stimullaşdırılsın, vəkillərin sayı artırılsın, imkansız, aztəminatlı şəxslərə keyfiyyətli hüquqi yardımın göstərilməsi təmin edilsin. **"Hesab edirəm ki, bugünkü memorandumun imzalanması o tövsiyənin yerinə yetirilməsi üçün atılan ən vacib, həlledici addımlardan biridir. Əldə olunmuş razılığa əsasən hüquqi məsləhətlər pulsuz göstəriləcək. Səyyar "ASAN vəkil" xidmətlərinin göstərilməsi də qarşımızda duran hədəflərimizdən biridir",** - deyə Vəkillər Kollegiyasının sədri vurğulayıb.

Sonra jurnalistlərin sualları cavablandırılıb.

# İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri Mingəçevirdə vətəndaşları qəbul edib



İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri Zaur Əliyev oktyabrın 3-də icbari tibbi sığortanın pilot layihə olaraq həyata keçirildiyi Mingəçevir şəhərində vətəndaşları qəbul edib.

Agentliyin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, qəbula gələn vətəndaşların müraciətləri əsasən icbari tibbi sığortanın tətbiqi, müayinə-müalicə, dərman və digər vasitələrlə təminat, işlə və digər məsələlərlə əlaqədar olub.

Vətəndaşların müraciətləri dinlənilib, əksər məsələlər yerindəcə həllini tapıb, bir sıra müraciətlərlə bağlı agentliyin struktur bölmələrinə tapşırıqlar verilib. Agentliyin səlahiyyətlərinə aid olmayan məsələlərlə əlaqədar müraciət edən vətəndaşlara ətraflı izahat verilərək aidiyyəti üzrə baxılması üçün müvafiq qurumlara yönəldilib.

Qəbul zamanı verilən təkliflər agentliyin və onun tabeliyində olan tibb müəssisələrinin fəaliyyətində nəzərə alınacaq.

# YAP Bərdə rayon təşkilatı tərəfindən Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi ilə bağlı tədbir keçirilib



Yeni Azərbaycan Partiyası (YAP) Bərdə rayon təşkilatı tərəfindən şəhər 7 saylı tam orta məktəbində Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi ilə əlaqədar tədbir keçirilib. Dövlət Himninin səsləndirilməsi ilə başlayan tədbirdə müasir Azərbaycan dövlətinin qurucusu və memarı, Ulu öndər Heydər Əliyevin və Xalq Cümhuriyyətinin qurucularının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə YAP Bərdə rayon təşkilatının məsul işçisi Fuad Ağayev çıxış edərək Azərbaycan Xalq Cümhuriyyətinin yaranması və fəaliyyəti haqqında danışıb. O, Xalq Cümhuriyyətinin yaranması ərəfəsində beynəlxalq aləmdə və regionda baş verən proseslərdən bəhs edərək bildirib ki, xalqımızın maarifpərvər ziyalıları, dövrün siyasi xadimləri, yazıçı və şairləri daim milli kimliyimizin, dövlətçilik ənənələrimizin qorunması və gələcək nəsillərə ötürülməsi istiqamətində gərgin mübarizə aparıblar.

Bildirib ki, cümhuriyyət gərgin və mürəkkəb ictimai-siyasi şəraitdə 23 ay fəaliyyət göstərsə də, xalqımızın tarixində ən parlaq səhifələrindən biri kimi qalıb. Xalq Cümhuriyyəti dövlət quruculuğu sahəsində qısa müddətdə həyata keçirdiyi tədbirlərlə Azərbaycan xalqının tarixində silinməz iz buraxmış, milli dövlətçiliyimizin bərpasında bünövrə rolunu oynamışdı.

Natiq deyib ki, XX əsrin sonunda yenidən öz müstəqilliyini əldə edən Azərbaycan dövlətçiliyi Ümummilli lider Heydər Əliyevin tarixi xidmətləri sayəsində qorunub saxlanılıb və bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə yeni inkişaf mərhələsinə qədəm qoyub.

Qeyd olunub ki, Azərbaycan Prezidenti İlham Əliyev 2018-ci ili "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan etməklə bütün dünyaya ölkəmizin böyük müstəqillik tarixinə malik olması mesajını verdi.

Daha sonra tədbirdə şəhər 7 saylı tam orta məktəbin müəllimi Gülnarə Əzimova çıxış edərək bildirib ki, Xalq Cümhuriyyəti Azərbaycan xalqının ictimai, siyasi, mədəni düşüncəsinin məhsuludur. Bu hadisənin Azərbaycanın dövlətçilik tarixində xüsusi yeri vardır.

Tədbirin sonunda Heydər Əliyev Fondunun dəstəyi ilə Bakı Media Mərkəzi tərəfindən çəkilmiş "Əbədi ezamiyyət" filmi nümayiş etdirilib.

# Ölkəmizdə qeyri-neft sektorunun inkişafı və əhalinin sosial rifahının yüksəldilməsi istiqamətində həyata keçirilən tədbirlər özünün müsbət nəticəsini göstərir



***Milli Məclisin deputatı Tahir Süleymanov www.yap.org.az saytına müsahibə verib:***

**- Tahir müəllim, Azərbaycan dünya miqyasında öz iqtisadi inkişaf modeli ilə fərqlənən ölkələrdəndir. Ötən müddət ərzində Azərbaycan iqtisadiyyatının inkişafı istiqamətində həyata keçirilən tədbirləri və əldə edilən nəticələri necə qiymətləndirirsiniz?**

- Ölkəmizin iqtisadi inkişaf göstəriciləri olduqca pozitivdir və müxtəlif beynəlxalq reytinq institutları, araşdırma mərkəzləri tərəfindən yüksək qiymətləndirilir. Azərbaycan son 15 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasətin fonunda böyük inkişaf yolu keçib. Bu hərtərəfli inkişaf bütün sahələri əhatə etməklə yanaşı, Azərbaycanın iqtisadi qüdrətinin artmasını təmin edib. Həyata keçirilən iqtisadi siyasətin nəticəsi kimi, ötən illər ərzində ölkəmizin valyuta ehtiyatları artıb, müxtəlif sahələri əhatə edən layihələr uğurla reallaşdırılıb, islahatlar davam etdirilib. İqtisadiyyatın diversifikasiyasına nail olmaq üçün həyata keçirilən tədbirlər və əldə edilən nailiyyətlər yeni inkişaf perspektivlərinin meydana çıxmasını şərtləndirib.

Dünyada maliyyə-iqtisadi böhranın olduğu şəraitdə Azərbaycan iqtisadiyyatının dayanıqlı inkişafını təmin edib, nəzərdə tutulan bütün proqramlar, o cümlədən infrastruktur layihələri müvəffəqiyyətlə icra olunub.

Əminliklə demək olar ki, dövlətimizin başçısının rəhbərliyi ilə hazırda həyata keçirilən islahatlar bundan sonra da uğurla davam etdiriləcək və qarşıya qoyulan bütün məqsədlərə çatmaq mümkün olacaq. Bu gün ölkəmizdə qeyri-neft sektorunun inkişafı, iqtisadi və maliyyə sisteminin sabitliyinin təmin olunması, biznes mühitinin daha da yaxşılaşdırılması, əhalinin sosial rifahının yüksəldilməsi və digər istiqamətlərdə əhəmiyyətli tədbirlər həyata keçirilir və bu da özünün müsbət nəticələrini göstərir. Şübhəsiz ki, xalqımız bütün bunları görür və yüksək dəyərləndirir. Azərbaycan vətəndaşları Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasəti birmənalı olaraq dəstəkləyirlər.

**- Uğurlu siyasətin nəticələrindən biri də regionların sosial-iqtisadi inkişafı istiqamətində mühüm nailiyyətlərin əldə edilməsidir. Bu sahədə görülən işlər və əldə edilən nəticələr barədə nə söyləmək olar?**

- Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin mühüm istiqamətlərindən birini regionların sosial-iqtisadi inkişafı təşkil edir. Dövlətimizin başçısının fərmanları ilə təsdiqlənərək 2004-cü ildən indiyədək uğurla reallaşdırılan müvafiq regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramlarında nəzərdə tutulan konkret vəzifələr müvəffəqiyyətlə yerinə yetirilib. Bunun əyani göstəricisi bölgələrin hərtərəfli və dinamik inkişafıdır.

Prezident İlham Əliyev 2003-cü ildə regionların sosial-iqtisadi inkişafı ilə bağlı beşillik Dövlət proqramlarının qəbul edilməsi təşəbbüsünü irəli sürmüşdü və sonra bu təşəbbüsü reallaşdıraraq bölgələrin inkişafına xidmət edən müvafiq Dövlət proqramlarının icra olunmasını təmin etdi. Dövlət başçısının müvafiq fərmanları ilə təsdiqlənən regionların sosial-iqtisadi inkişafına dair 2004-2008 və 2009-2013-cü illəri əhatə edən iki Dövlət Proqramı uğurla reallaşdırıldı və müsbət göstəricilər əldə olundu. 2014-2018-ci illəri əhatə edən sayca üçüncü Dövlət Proqramı isə hazırda yerinə yetirilir və qazanılan uğurlar göz qabağındadır. İlk Dövlət Proqramının icrasına başlanmasından etibarən regionlarda 70 mindən çox müəssisə fəaliyyətə başlayıb, bölgələrdə ümumi məhsul buraxılışı əhəmiyyətli dərəcədə artıb. 2004-cü ildən etibarən Dövlət proqramlarının icrasına bütün mənbələr hesabına milyardlarla manat vəsait yönəldilib, dövlətimizin başçısı tərəfindən bölgələrdə yol infrastrukturunun yenilənməsinə, müxtəlif layihələrin reallaşdırılmasına və abadlıq-quruculuq işlərinin aparılmasına, eləcə də digər məsələlərə əlavə maliyyə vəsaitlərinin ayrılmasına dair çoxsaylı sərəncamlar imzalanıb.

Qeyd edim ki, mənim təmsil etdiyim Şabran rayonu da ötən dövrdə xeyli dərəcədə sosial-iqtisadi baxımdan inkişaf edib. Ölkəmizin digər bölgələrində olduğu kimi, bu rayonda da bütün sahələr üzrə infrastruktur yenilənir, yeni-yeni müəssisələr yaradılır, əhalinin məşğulluğunun təmin olunması istiqamətində davamlı işlər görülür.

**- Qeyri-neft iqtisadiyyatında əldə olunan nəticələrə toxundunuz. Hazırda bu sektorun inkişafı ilə bağlı nə deyə bilərsiniz?**

- Hazırkı şəraitdə hər bir ölkənin gücü, ümumi iqtisadi potensialı, qlobal miqyasdakı yeri bir sıra digər parametrlərlə yanaşı, eyni zamanda, sənaye inkişafı ilə ölçülür. Güclü sənaye potensialına malik olan ölkələr həm daxili tələbatlarını yerli istehsal hesabına ödəyərək maliyyə vəsaitlərini qoruyurlar, həm də xarici bazarlarda böyük həcmlərdə məhsullarla təmsil olunaraq özlərinə valyuta axınını təmin edirlər. Sənaye sektorunun inkişafının iqtisadi-siyasi önəmi ilə yanaşı, sosial əhəmiyyəti də kifayət qədər böyükdür. Belə ki, yüksək əmək tutumuna malik sənaye istehsalatları əhalinin məşğulluğunun təmin olunmasında və beləliklə də, yoxsulluğun aradan qaldırılmasında mühüm rol oynayırlar.

Ölkədə qeyri-neft sənayesinin inkişafında son illərdə bütün respublika boyu yaradılan müasir infrastruktur fundamental amillərdən biri qismində çıxış edir. Sənaye inkişafını güclü infrastruktur təminatı olmadan təsəvvür etmək mümkün deyil. Son illərdə əsaslı dövlət vəsaiti qoyuluşu hesabına Azərbaycan infrastruktur təminatı baxımından dünyanın ən qabaqcıl ölkələri səviyyəsinə yüksəlib ki, bunun da sayəsində respublikamızda sənaye quruculuğu üçün geniş perspektivlər açılıb.

Respublikamızda müasir çağırışlar nəzərə alınmaqla qeyri-neft sənayesinin inkişafına göstərilən diqqət öz bəhrəsini verir. Əlamətdar haldır ki, son illərdə Azərbaycanda ən yaxşı inkişaf göstəriciləri məhz qeyri-neft sənayesində qeydə alınır.

**- Tahir müəllim, bildiyimiz kimi, qeyri-neft sektorunda aqrar sahə xüsusi yer tutur. Ölkəmizdə aqrar sahənin inkişafı hər zaman dövlətin diqqətindədir. Son illər kənd təsərrüfatının inkişafı ilə bağlı atılan addımları və bu istiqamətdə həyata keçirilən islahatları necə qiymətləndirirsiniz?**

- Təbii ki, yeni iqtisadi şəraitdə Azərbaycanın üstün inkişafını hədəflədiyi sahələrdən biri də aqrar sektordur. Ölkəmizin malik olduğu əlverişli coğrafi-iqlim xüsusiyyətləri, fəal məşğul əhalinin 40 faizdən çoxunun bölgələrdə yaşaması bütün respublika boyu kənd təsərrüfatının qarşısında geniş inkişaf perspektivləri açır. Dövlət tərəfindən göstərilən davamlı siyasi və maddi-texniki dəstək hesabına aqrar sektorun geniş potensialından maksimum səmərə ilə istifadə etməklə yeni şəraitdə ölkənin qeyri-neft məhsulları üzrə ixrac imkanlarını əhəmiyyətli dərəcədə artırmaq mümkündür.

Bu gün Azərbaycanda kənd təsərrüfatının inkişafı istiqamətində olduqca münbit bir şərait yaradılıb. Ulu öndərimiz Heydər Əliyevin əsasını qoyduğu və bu gün hörmətli Prezidentimiz İlham Əliyevin uğurla davam etdirdiyi aqrar siyasət kursunun nəticəsi olaraq bu sahədəki boşluqlar aradan qaldırılıb, kənd təsərrüfatının inkişafı ilə bağlı mühüm sənədlər, o cümlədən ərzaq təhlükəsizliyi və regionların sosial-iqtisadi inkişafı haqqında Dövlət proqramları təsdiq olunub. Bu proqramlar Azərbaycanın ərzaq təhlükəsizliyinin təminatı istiqamətində atılmış mühüm addımlardır. Bu gün ölkəmizdə ərzaq təhlükəsizliyi məsələsi ölkə əhalisini təmin edəcək həcmdə məhsulun istehsalı və emalı potensialının mövcudluğu, ölkə əhalisi tərəfindən istehlak edilən ərzağın keyfiyyəti, dövlət əhəmiyyətli strateji ərzaq məhsullarının ölkədaxili istehsalı kimi komponentləri özündə birləşdirir.

Bilirsiniz ki, Milli Məclisdə aqrar sahə ilə bağlı, o cümlədən strateji məhsullar haqqında qanunlar qəbul edilib. Eləcə də son illər dövlət başçısı tərəfindən bu sahənin inkişafı ilə əlaqədar mühüm Fərman və sərəncamlar verilib. Bu sənədlər bəhs olunan sahənin davamlı inkişafının hüquqi bazasını təşkil edir.

Yeni iqtisadi şəraitdə dövlət başçısı tərəfindən bir sıra kənd təsərrüfatı məhsullarının istehsalını əhəmiyyətli dərəcədə artırmaq vəzifəsi qarşıya qoyulub və bu yöndə fermerlərə, iş adamlarına güzəştlər edilir. Xüsusilə, pambıqçılıq, tütünçülük, baramaçılıq, fındıqçılıq və digər məhsulların istehsalını artırmaq və ixrac etmək yönündə ciddi addımlar atılır. Artıq bu istiqamətdə müsbət nəticələr əldə olunmaqdadır. Belə ki, adıçəkilən sahələrdə istehsalın artırılması ilə yanaşı, ölkəmizin kənd təsərrüfatı məhsullarının xaricə ixracı prosesində də artım müşahidə edilir. Şübhə yoxdur ki, bu yöndə vəziyyət ildən-ilə daha da yaxşılaşacaq.

**- Sənaye parklarının yaradılması da ölkədə qeyri-neft sektorunun inkişafında mühüm rol oynayır. Bu barədə nə deyə bilərsiniz?**

- Son illərdə respublikamızda Prezident İlham Əliyevin təşəbbüsünə əsasən sənaye parklarının və sənaye məhəllələrinin yaradılması geniş vüsət alıb. Ölkədə sənaye parklarının və sənaye məhəllələrinin yaradılması ilə Azərbaycanda sənayenin inkişafında keyfiyyətcə yeni mərhələnin açıldığını söyləmək mümkündür. Bu amil ölkədə qeyri-neft sektorunun inkişafında mühüm rol oynayır. Sənaye məhəllələri və parkları üçün infrastruktur təminatı, bir qayda olaraq, dövlət vəsaiti hesabına yaradılır. Ümumiyyətlə, investorların sənaye məhəllələrinə və parklarına cəlb edilməsi məqsədilə reallaşdırılan təşviq tədbirlərinin miqyası kifayət qədər genişdir. İş adamları da yaradılan əlverişli şəraitdən, dövlət dəstəyindən maksimum dərəcədə bəhrələnməyə çalışırlar. Bu dövlət-özəl sektor əməkdaşlığının nəticəsidir ki, sənaye parklarının yaradılması artıq öz səmərəsini verir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sədrliyi ilə keçirilən Nazirlər Kabinetinin 2018-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında bildirildiyi kimi, sənaye parklarına indiyədək 2,6 milyard dollar investisiya yatırılıb, tikintidə və istehsalda 11 minə yaxın iş yeri yaradılıb. Növbəti mərhələdə 1,1 milyard dollardan çox investisiya qoyuluşu və 7500-dək yeni iş yerinin açılması nəzərdə tutulur.

# XİN: Latviya vətəndaşının adı arzuolunmaz şəxslər siyahısından çıxarılıb



Latviya Respublikasının vətəndaşı, “IMPRO Travels LTD\” tur agentliyinin əməkdaşı Harijs Egliens Xarici İşlər Nazirliyinə məktubla müraciət edərək adının “Azərbaycan Respublikasının işğal edilmiş ərazilərinə qanunsuz səfər etmiş əcnəbilərin siyahısı”ndan çıxarılmasını xahiş edib.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, məktubunda Harijs Egliens 2015-ci ilin oktyabrında Dağlıq Qarabağa səfər etdiyini bildirib və səfərinin doğuracağı nəticələr barədə məlumatlı olmadığını ifadə edib. O, bu səfərin Azərbaycan Respublikasına və xalqına qarşı heç bir halda hörmətsizlik anlamı daşımadığını vurğulayıb.

Harijs Egliens Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyünə, suverenliyinə və qanunlarına hörmət etdiyini bildirib, sözügedən səfərlə əlaqədar Azərbaycan hökuməti və xalqından üzr istədiyini qeyd edib.

Səfərlə əlaqədar təəssüfünü ifadə edən Harijs Egliens Ermənistan tərəfindən Azərbaycanın işğal olunmuş ərazilərinə səfərin heç bir halda bu bölgədə yaradılmış qondarma rejimin təşviqinə xidmət etmədiyini vurğulayıb.

Həmçinin o, gələcəkdə Azərbaycanın işğal edilmiş ərazilərinə səfər etməyəcəyini diqqətə çatdırıb.

Sonda Harijs Egliens gələcəkdə ölkəmizə səfər etməsi üçün icazə verilməsini xahiş edib.

Onun müraciəti müvafiq qaydada nəzərdən keçirilib və adının arzuolunmaz şəxslər siyahısından çıxarılmasına dair qərar qəbul olunub.

# Avropa Parlamentinin Kiprdən olan deputatı işğalçıların dəstəkçisi rolunda

## *AP-nin mandatından sui-istifadə edən Eleni Teoxarus işğalçı Ermənistanın və qondarma separatçı rejimin təbliğatçısına çevrilib*

Azərbaycan torpaqlarını işğal altında saxlayan Ermənistan təcavüzkarlıq siyasətini davam etdirməklə beynəlxalq hüquq normalarını kobudcasına pozur. Belə ki, Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazilərində qeyri-qanuni fəaliyyət göstərən separatçı bir rejim yaradaraq beynəlxalq qanunları, sərhədlərin toxunulmazlığı ilə bağlı konvensiyaları pozan Ermənistan bununla həm də Cənubi Qafqaz regionunda sülhə başlıca təhdid olduğunu açıq şəkildə göstərir. Eləcə də işğal etdiyi Azərbaycan torpaqlarına bir sıra xarici şəxslərin “səfərlər”ini təşkil etməklə Dağlıq Qarabağda yaradılan qondarma terrorçu rejimi “təbliğ” etməyə çalışan rəsmi İrəvan beynəlxalq razılaşmaları da heçə saydığını nümayiş etdirir. Amma ölkəmiz hər zaman bu tip qeyri-qanuni addımların lazımi cavabını verir, bununla bağlı müvafiq addımlar atır. O cümlədən, Azərbaycanın işğal altında olan ərazilərinə qeyri-qanuni səfər edən şəxslər ölkə qanunvericiliyinə uyğun olaraq məsuliyyətə cəlb olunur, həmçinin həmin şəxslərin ölkəmizə gəlişinə qadağa qoyulur. Bu cür hallardan biri 2017-ci ilin fevralında yaşanmışdı və Azərbaycanın Ermənistan tərəfindən işğal edilmiş torpaqlarına qanunsuz səfərlər edən blogger Aleksandr Lapşin ölkəmizə ekstradisiya edilərək həbs olunmuşdu. Daha doğrusu, A.Lapşinin hərəkətlərində dövlət sərhədini qanunsuz olaraq keçmə əməllərinin tərkib əlamətləri olduğundan ölkəmizin Baş Prokurorluğunun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsində fakta görə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanılmış və barəsində dövlətlərarası axtarış elan edilmişdi. 2016-cı ilin dekabrında Belarusda saxlanan A.Lapşin 2017-ci ilin fevralında Azərbaycana ekstradisiya olunmuşdu. Bu, bir daha Azərbaycanın ərazilərinə qanunsuz edilən səfərlərin məsuliyyətindən qaçmağın mümkünsüzlüyünü ortaya qoyur.

Bir məsələni də vurğulamaq gərəkdir ki, işğalçı Ermənistan Dağlıq Qarabağda yaratdığı qondarma rejimə “hüquqi don” geyindirmək üçün zaman-zaman bu cür təxribatçı “səfərlər” təşkil edir. Bu mənada Avropa Parlamentinin (AP) qanlı separatçılıq və etnik təmizləməni təşviq edən üzvü Eleni Teoxarusun işğal altındakı torpaqlarımıza səfərləri də həmin təxribatçı səfərlərdən sayılmalıdır.

### RADİKAL MİLLƏTÇİ BAXIŞLARI İLƏ SEÇİLƏN ELENİ TEOXARUS ETNİK TƏMİZLƏMƏNİN TƏRƏFDARI KİMİ ÇIXIŞ EDİR

Xatırladaq ki, Eleni Teoxarus ölkə ictimaiyyətinə Azərbaycanın işğal edilmiş ərazilərinə etdiyi qanunsuz səfərləri ilə tanışdır. Bunun nəticəsində o, ölkəmizə “girişi arzu olunmayan şəxslər siyahısı”na daxil edilib və haqqında Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi açılıb. Bir daha qeyd olunmalıdır ki, Avropa Parlamentinin (AP) Kipr Respublikasından üzvü olan Eleni Teoxarus hər zaman etnik təmizləmə və separatizmi dəstəkləyən şəxs kimi tanınıb. Siyasi karyerasına 2001-ci ildə Limasol bölgəsindən Kiprin Nümayəndələr Palatasına üzv olaraq seçilməklə başlayan E.Teoxarus 2009-cu ildən etibarən AP-də Avropa Xalq Partiyası siyasi qrupunun üzvü kimi fəaliyyətə başlayıb. Kiprdə 2016-cı ildə qanunvericilik orqanına seçkilərdən öncə siyasi baxışlarında olan ayrı-seçkilik səbəbi ilə sağ təmayüllü mühafizəkar Demokratik Yürüş (Disy) Partiyasını tərk edən və özünün millətçi Həmrəylik Hərəkatı Partiyasını quran Teoxarusun “Disy”ni tərk etməsinin əsas səbəbi partiyanın Kipr adası məsələsinin iki zonalı həlli yoluna olan baxışına qarşı çıxması olub. Təsadüfi deyil ki, radikal millətçi baxışları ilə seçilən və “Kipr Respublikasını xilas edək” şüarı altında fəaliyyət göstərən bu deputat öz fəaliyyətinin əsas hədəfini məhz anti-Türkiyə istiqamətli olaraq müəyyən edib. AP üzvlüyü dövründə parlamentin üzvlərinin Avropa Komissiyasına onları maraqlandıran bu və digər məsələlər ilə bağlı yazılı suallarla müraciət etmək prosedurundan faydalanaraq 2014-cü ildən etibarən bu deputat tərəfindən Komissiyaya ünvanlanan 45 sualın əksəriyyəti Türkiyə əleyhinə yönəlib.

### ELENİ TEOXARUS AZƏRBAYCANIN İŞĞAL ALTINDA OLAN ƏRAZİLƏRİNƏ NÖVBƏTİ DƏFƏ QEYRİ-QANUNİ SƏFƏR EDİB

Qeyd edək ki, separatizmi və etnik təmizləməni özünün ideologiyası kimi təyin edən E. Teoxarus hələ 1990-cı illərdən həkimlik fəaliyyəti çərçivəsində Ermənistan və erməni lobbiçilik torunun alətinə çevrilib. Bu “həkim-deputat” ölkəmizin işğal olunmuş Dağlıq Qarabağ bölgəsində “humanitar missiya” fəaliyyəti altında cərrahiyyə əməliyyatları həyata keçirib və bu xidmətlərinə görə “Dağlıq Qarabağın şərəf qızıl medalı”na layiq görülüb. Maraqlıdır ki, peşəkar cərrah, Hippokrat andı içmiş həkim E.Teoxarus erməni silahlı qüvvələri tərəfindən Azərbaycanın Dağlıq Qarabağ bölgəsi və ətraf rayonları işğal edilən zaman yüz minlərlə insanın üzləşdiyi etnik təmizləməyə, 1992-ci ilin 26 fevral tarixində Xocalı şəhərində yalnız bir gecədə 600-dən çox mülki azərbaycanlının qətliamına göz yumaraq, nədənsə “humanitar” xidmətlərini Dağlıq Qarabağın erməni icmasına təklif etməklə kifayətlənib. O dövrdən ermənipərəst mövqeyi və fəaliyyəti ilə tanınan E.Teoxarus Ermənistan və erməni diaspor təşkilatlarının sifarişi



əsasında hazırda Azərbaycan torpaqlarının işğalı nəticəsində yaradılmış qondarma separatçı rejimin beynəlxalq müstəvidə, xüsusilə də AP çərçivəsində təbliğatı ilə məşğuldur. Onun sosial şəbəkələrdə yayılan və AP deputatı kimi erməni jurnalistinə verdiyi müsahibəsində səsləndirdiyi fikirlər isə bu “deputat”ın separatçılığı açıq şəkildə təbliğ etdiyini söyləməyə bir daha əsas verir.

Xüsusi olaraq vurğulamaq gərəkdir ki, bu şəxs Azərbaycanın işğal edilmiş Dağlıq Qarabağ bölgəsinə çoxsaylı qanunsuz səfərlər edib. Bunun sonuncusu isə 2018-ci ilin 27 sentyabrına təsadüf edir. Deputatı səfər boyu müşayiət edən və ona Dağlıq Qarabağda əsl “gəzinti turu” təşkil edən Kaspar Karapetyandır. K.Karapetyan isə Avropada erməni işğalını legitimləşdirmək istiqamətində fəaliyyət göstərən şəxsdir.

### E.TEOXARUSUN DAĞLIQ QARABAĞA QANUNSUZ SƏFƏRLƏRİNDƏ AVROPA PARLAMENTİNİN ADINDAN SUİ-İSTİFADƏ ETMƏSİ ARAŞDIRILMALIDIR

Diqqət cəlb edən daha bir maraqlı məqam isə ondan ibarətdir ki, AP üzvü qismində üçüncü tərəf vasitəsilə maliyyələşdirilən tədbirlərdə iştirakına dair açıqlama (declaration - bəyanat) vermək məcburiyyətində olan E.Teoxarus bu günədək Azərbaycanın işğal edilmiş ərazilərinə çoxsaylı səfərlər etməsinə rəğmən AP-nin rəsmi internet səhifəsində yalnız 2017-ci ilin fevral ayında Dağlıq Qarabağda keçirilən qondarma “referendum”da iştirakla bağlı səfərinə dair bəyanat yerləşdirib. Qanunsuz səfərlərinin hər birini Avropa Parlamentinin üzvü mandatından sui-istifadə etməklə və bir növ AP-nin rəsmi nümayəndə heyətinə rəhbərlik edirmiş kimi qələmə verməyə çalışan (hər halda, erməni KİV-i bunu belə təqdim edir) E.Teoxarusun bu fəaliyyəti AP üzvlüyündən sui-istifadə halı kimi araşdırılmalıdır. Eləcə də onun xaricdən maliyyələşən səfərləri haqqında AP-yə müvafiq açıqlama verməsi məsələsinin ətraflı yoxlanılmasında da fayda var. Nəticədə, söhbət Avropa dəyərlərinin, qanunun aliliyinin və insan hüquqlarının əsas keşikçisi olan Avropa Parlamentinin tam hüquqlu üzvündən gedir...

**Pərviz SADAYOĞLU**

# Azərbaycan Avtomobil Federasiyası drift məktəbinə qəbul elan edir

Azərbaycan Avtomobil Federasiyası (AAF) tərəfindən yaradılan drift məktəbinə qəbul elan olunur.

AZƏRTAC xəbər verir ki, drift məktəbində təlimləri Beynəlxalq Avtomobil Federasiyasının (FIA) ekspertləri keçəcək. Ustad dərslərini drift üzrə İrlandiya və Britaniya çempionu Duan Makkiver, Almaniya və Niderland çempionu Sebastian Fontijn, "Red Bull" atleti, drift üzrə üççat Ukrayna çempionu Aleksandr Qrinçuk aparacaq.

Drift məktəbinin açılmasında əsas məqsəd avtomobil idmanının inkişafı, bu sahəyə marağın artırılması, ölkəmizi beynəlxalq yarışlarda təmsil edə biləcək yerli idmançı və mütəxəssislərin hazırlanmasıdır.

Qeydiyyatdan keçmək istəyən şəxslər oktyabrın 9-dək office@faa.az ünvanına müraciət edə və ya 050 295 01 00 telefon nömrəsinə zəng vura bilərlər. Drift dərslərində iştirak ödənişlidir.

İlk dərslər oktyabrın 11-dən 14-dək Dənizkənarı Milli Park ərazisində keçiriləcək.

# Qızılağac Qoruğu əməkdaşlarına silahla xəsarət yetirən şəxs barəsində cinayət işi başlanıb



Oktyabrın 1-də Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Qızılağac Dövlət Təbiət Qoruğundan qoruq əməkdaşlarının reyd zamanı ərazidə qanunsuz ov edən şəxs tərəfindən ov silahı ilə atəş açılması nəticəsində müxtəlif dərəcəli bədən xəsarətləri almaları barədə daxil olmuş material Masallı Rayon Prokurorluğunda araşdırılıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin və Baş Prokurorluğun mətbuat xidmətlərinin AZƏRTAC-a daxil olan birgə məlumatında bildirilir ki, araşdırmalarla həmin tarixdə saat 02 radələrində qoruq ərazisində qanunsuz ov edən rayon sakini İlqar Səmədovun qoruğun mühafizəçiləri Böyükkişi Qaraşovun və Ariz Cəfərovun qanuni göstərişlərinə məhəl qoymayıb məsuliyyətdən yaxa qurtarmaq məqsədilə ov tüfəngindən iki dəfə atəş açıb müxtəlif dərəcəli bədən xəsarətləri yetirməsinə əsaslı şübhələr müəyyən edildiyindən rayon prokurorluğunda Cinayət Məcəlləsinin 315.2-ci (hakimiyyət nümayəndəsinə qarşı həyat və sağlamlıq üçün təhlükəli olan zor tətbiqetmə) maddəsi ilə cinayət işi başlanıb.

İş üzrə müvafiq ekspertizalar təyin olunub, şahidlər dindirilib və digər istintaq hərəkətləri aparılıb.

İ.Səmədov şübhəli şəxs qismində tutularaq istintaqa cəlb olunub.

Hazırda iş üzrə zəruri istintaq tədbirləri davam etdirilir.

# İşğalçı Ermənistan hara, Beynəlxalq Frankofoniya Təşkilatı hara?!

*Yaxud, əsası humanizm, sülh kimi dəyərlər üzərində qoyulmuş BFT Xocalı soyqırımını törətmiş bir dövlətin ərazisində nəinki özünün zirvə görüşünü keçirməklə, hətta bu dövləti üzvlüyə qəbul etməklə nizamnaməsinə xəyanət edib*

Xəbər verildiyi kimi, cari il 11-12 oktyabr tarixlərində Ermənistanda Beynəlxalq Frankofoniya Təşkilatının (BFT) 17-ci zirvə görüşünün keçirilməsi nəzərdə tutulub. Xatırladaq ki, BFT-də dünyanın 5 fərqli qitəsindən 890 milyon insanın yaşadığı 58 dövlət təmsil olunur. Kifayət qədər geniş kontingenti və coğrafiyanı əhatə edən təşkilatın öz zirvə tədbirini keçirmək üçün işğalçı Ermənistanı seçməsi isə suallar doğurur. Belə görünür ki, Ermənistan bu dəfə də öz xislətinə uyğun olaraq riyakarlığa əl atıb və özünü təşkilatın üzvlərinə "ağ mələk" qiyafəsində təqdim etməyi bacarıb.

### ERMƏNİSTANIN YÜRÜTDÜYÜ SİYASƏTLƏ BFT-NİN NİZAMNAMƏSİ ZİDDİYYƏT TƏŞKİL EDİR

Beləliklə, beynəlxalq səviyyəli Frankofoniya Təşkilatının tədbirinin Ermənistanın paytaxtı İrəvanda keçirilməsi xəbəri hər kəsdə təəccüb doğurur. İlk növbədə o səbəbdən ki, Ermənistanın apardığı işğalçılıq siyasəti və bu forpost dövlətin hazırkı reallıqları ilə BFT-nin nizamnaməsi ziddiyyət təşkil edir. Nizamnaməyə əsasən, dünyada sülhün və əmin-amanlığın, insan hüquq və azadlıqlarının təşviq edilməsi arzusu BFT-nin missiyasının və fəaliyyətinin əsas prinsiplərini təşkil edir. Sual olunur: sadalanan dəyərlərin işğalçı Ermənistana hansı aidiyyəti var? Ermənistan ən yaxın tarixdə öz havadarlarının köməyi ilə Azərbaycanın ərazilərinin 20 faizini işğal edib, 1 milyondan artıq dinc sakini öz ata-baba yurdundan didərgin salıb və nəhayət, Xocalı soyqırımını törədib. Belə çıxır ki, əsası humanizm, sülh, insan hüquq və azadlıqları kimi dəyərlər üzərində qoyulmuş bir təşkilat XX əsrin ən böyük faciələrindən birini - Xocalı soyqırımını törətmiş və bunu ən yüksək səviyyədə dəfələrlə utanmadan və qürur duyaraq etiraf etmiş bir dövlətin ərazisində nəinki özünün zirvə görüşünü keçirməklə, hətta bu dövləti üzvlüyə qəbul etməklə nizamnaməsinə xəyanət edib.

Frankofoniya tədbirinin Ermənistanda keçirilməsi BFT-nin nizamnaməsinin digər tələbi ilə də bir araya sığmır. Belə ki, Frankofoniyanın əsasında Fransiz dili amili durur. Amma Ermənistanı heç bir halda fransızdilli ölkə adlandırmaq olmaz. Heç kəsə sirr deyil ki, Ermənistan aparılan məqsədyönlü siyasət sayəsində monoetnik ölkəyə çevrilib. Burada başqa dillərdə, o cümlədən də fransızca danışanların sayı barmaqla sayılacaq qədər azdır.

Digər bir məqama diqqət yetirək: BFT-nin üzvləri ayrı-ayrılıqda və ya beynəlxalq təşkilatlar çərçivəsində Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalı faktını tanıyıb.

Eyni zamanda, 2010-cu ildə İsveçrənin Montrö şəhərində keçirilmiş zirvə görüşündə təşkilat Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qətnamə qəbul etmiş və qətnamənin qəbulunda iştirak edən dövlətlər ATƏT-in Minsk Qrupunun səylərini dəstəklədiklərini və münaqişənin sülh yolu ilə həll olunmasını vurğulayıblar. Bundan başqa, təşkilatın bir sıra üzvləri, eləcə də burada müşahidəçi qismində iştirak edən ayrı-ayrı dövlətlər Ermənistanın Xocalıda törətdiyi qətliamı rəsmi şəkildə soyqırımı kimi tanıyıblar. Bütün bunlardan sonra BFT-nin öz sammitini keçirmək üçün məkan kimi işğalçı Ermənistanı seçməsi ən azından təəccüb və təəssüf hissi doğurur.

### İŞĞALÇI ÖLKƏDƏ SAMMİT İŞTİRAKÇILARININ RAHATLIĞININ VƏ TƏHLÜKƏSİZLİYİNİN TƏMİN EDİLƏCƏYİNƏ BÖYÜK ŞÜBHƏLƏR VAR

BFT-nin növbəti sammitinin keçirilməsi üçün Ermənistanı məkan seçməsini şərh edən ekspertlər qonaqların yerləşdirilməsi, təhlükəsizlik məsələlərinə və bu kimi digər mühüm məqamlara da diqqət çəkirlər. Həqiqətən də, forpost dövlətin reallıqları elədir ki, burada sammit iştirakçılarının rahatlığının və təhlükəsizliyinin təmin ediləcəyinə böyük şübhələr var. Ermənistan bir ölkə olaraq hal-hazırda səfalət içərisində yaşayır. Sıravi erməni vətəndaşlar ailələrini dolandırmaq üçün xarici ölkələrə üz tutur, oralarda nökərçilik edirlər. Ermənistan dövləti isə xarici ianələr hesabına mövcudluğunu davam etdirir. Belə bir vaxtda bu qədər xarici qonağı qəbul etməyə Ermənistanın nə maddi imkanı, nə də logistik şəraiti var. Nümayəndə heyətlərini qarşılamaq üçün xüsusi avtomobillər, həmçinin qonaqların yerləşdirilməsi üçün mehmanxana belə tapılmır.

Deyilənlərdən başqa, bu gün xaotik vəziyyət hökm sürən Ermənistanda kimin kimə və nəyə xidmət etdiyi məlum deyil. Öz vətəndaşlarının təhlükəsizliyini təmin edə bilməyən bir dövlət bu qədər qonağın təhlükəsizliyinin qayğısına necə qalacaq? Təkmillətli və təkdinli bir cəmiyyət bu qədər fərqli etnik struktura, inanca, dünyagörüşünə malik insanlara nə qədər dözümlülük göstərə biləcək? Təhlükə hiss etdikdə öz xalqını belə gülləbaran etməkdən çəkinməyən Ermənistanın güc strukturları nümayəndə heyətlərinin qeydinə qalacaqmı? Suallar çoxdur...

### ERMƏNİSTANIN SİYASİ AVANTÜRALARI BU DƏFƏ DƏ BİR NƏTİCƏ VERMƏYƏCƏK

Ermənistanın riyakar siyasət həyata keçirdiyi, beynəlxalq ictimaiyyətə, necə deyərlər, faktların astar üzünü təqdim etməyə çalışdığı hər kəsə bəllidir. Bu baxımdan forpost dövlət bu dəfə də hər zamankı kimi təxribatçı əməllərə əl atmağa, tədbirin gündəliyinin siyasiləşdirilməsinə çalışa bilər.

Ancaq sammitdə Ermənistanın siyasi avantüralarının qarşısının alınacağına heç bir şübhə yoxdur. Nəzərə almaq lazımdır ki, sammitdə iştirak edən dövlətlər arasında Azərbaycana dost münasibətdə olan İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlər, eləcə də Avropa və Asiya ölkələri də vardır. Şübhə yoxdur ki, Ermənistan yekun sənədə Azərbaycanın maraqlarına zidd olan müddəa təklif edərək həmin ölkələrin respublikamızla münasibətlərinə də zərbə vurmağa çalışacaq. Lakin Avropa Şurası və İƏT-ə üzv, eləcə də digər dost ölkələrin sammitdə iştirak etməsi həm tədbirin gedişində, həm də yekun sənəddə Ermənistanın hakim dairələrinin Azərbaycana qarşı təbliğat məqsədli addımına mane olacaq. Elə BFT-nin lideri Fransanın özünün Minsk qrupunun həmsədri kimi neytrallığını, imicini və bir tərəfdaş kimi Azərbaycandakı iqtisadi maraqlarını qorumaq naminə Ermənistanda belə bir təxribatçı addımı əngəlləyən əsas ölkə olacağına ümid edirik.

**Mübariz ABDULLAYEV**

# İşğalçı Ermənistandan Gürcüstana növbəti xəyanət

*Ermənilərin Abxaziya və Cənubi Osetiyada separatçılıq meyillərini dəstəkləməsi Gürcüstanın Cavaxetiya regionuna olan ərazi iddialarının daim aktual olduğunu göstərir*



Məlum olduğu kimi, ermənilər tarix boyu özgə millətlərə, xüsusilə də türklərə qarşı ərazi iddiaları ilə çıxış edib və təcavüz hesabına "böyük Ermənistan" arzularını gerçəkləşdirməyə çalışıblar. Onlar bu məqsədlə müxtəlif çirkin metod və vasitələrə baş vurublar. Mənfur qonşularımızın "Hai Tahd ideologiyası"na uyğun olaraq "Böyük Ermənistan" yaratmaq ideyaları, eyni zamanda, böyük güclərin maraqları ilə üst-üstə düşüb. Bunun da nəticəsidir ki, ermənilər ayrı-ayrı dövrlərdə azərbaycanlılara qarşı genişmiqyaslı qanlı aksiyaların altına imza atıb, tarixi Azərbaycan torpaqlarına qarşı təcavüzkar iddialarını daha da gücləndiriblər. Müxtəlif dövrlərdə ermənilər xalqımıza qarşı fərqli-fərqli təhdidlərdən məharətlə istifadə etməyə çalışıblar ki, buraya da təbliğat, qondarma "soyqırımı" iddiaları, torpaq tələbləri, qətllər-qırğınlar və s. daxildir.

Ermənilərin torpaq - ərazi iddiaları təkcə Azərbaycana yox, digər region dövlətlərinə qarşı da yönəlib. Təsadüfi deyil ki, hələ hakimiyyətdə olduğu zaman Ermənistanın eksprezidenti Serj Sarkisyan demişdi ki, "biz "böyük Ermənistan" yaratmaq yolunda ilkin addımı atdıq - Qarabağı işğal etdik, bundan sonrakı hədəfləri isə gələcək nəsillərə buraxırıq". Şübhəsiz ki, gələcək nəsillərə buraxılan hədəflər, əslində, regionda Ermənistanla qonşu olan 3 ölkənin ərazilərini ələ keçirməkdir. Bu ölkələrdən biri, uzun illərdir ki, işğala məruz qalan - ərazisinin 20 faizi Ermənistanın işğalı altında olan Azərbaycandır. İkincisi, Ermənistan Gürcüstanın Cavaxetiya bölgəsinə ərazi iddiaları irəli sürür. Üçüncüsü isə, Ermənistan tərəfindən Türkiyənin Ərdahan, Ərzurum, Qars, Diyarbəkir və Van vilayətlərinə ərazi iddiası irəli sürülür.

Ermənistanın işğalçılıq eyforiyası və separatist yanaşması bu gün də tam çılpaqlığı ilə müşahidə edilir. Bu kontekstdə mühüm bir nüansa diqqət yetirmək məqsədəmüvafiqdir. Məlum olduğu kimi, 27 sentyabr tarixində gürcü xalqı müasir tarixinin ən qanlı və kədərli hadisələrindən biri olan Suxuminin işğalının 25 illiyini qeyd etdi. Bəllidir ki, ermənilərin baqration batalyonu Suxumi uğrunda gedən döyüşlərdə gürcülərə qarşı vuruşub və xüsusi qəddarlıqla fərqlənib. Bu reallıq tarixi mənbələrdə aşkar olaraq öz əksini tapıb. Diqqətçəkən məqam budur ki, Suxuminin işğalının 25 illiyi və Abxaziyanın yaradılmasının ildönümü münasibətilə Abxaziya rəhbəri Raul Xacimbaya "Azadlıq günü və Böyük vətən müharibəsində qələbə" adı altında ilk təbrik göndərən şəxs Azərbaycanın işğal olunmuş ərazilərində yaradılmış qondarma rejimin rəhbəri Bako Saakyan olub. Məktubda qeyd edilib ki, 25 illik dövr ərzində abxaz xalqı çətin, amma şücaətli yol keçmişdir. Bildirilib ki, abxaz xalqı dövlət quruculuğunun bütün çətinlikləri ilə üzləşir, öz dövlətlərini gücləndirir.

Sirr deyil ki, Azərbaycanın işğal olunmuş ərazilərində yaradılmış qondarma rejimin bütün yazışmaları Ermənistan Xarici İşlər Nazirliyi tərəfindən aparılır. Belə olan halda, Abxaziya rəhbəri Raul Xacimbaya "Azadlıq günü və Böyük vətən müharibəsində qələbə" adı altında ilk təbrik məktubunu göndərən də məhz işğalçı Ermənistanın XİN-idir. Yeni Ermənistan qondarma, separatçı rejimin rəhbəri Bako Saakyanın dili ilə Gürcüstanın ərazi bütövlüyü və suverenliyinə nəinki hörmət etmədiyini, hətta onu pozmağa çalışdığını aşkar şəkildə nümayiş etdirib.

Göründüyü kimi, ermənilər Abxaziya və Cənubi Osetiyada separatçılıq meyillərini dəstəkləyirlər. Bu, qeyd etdiyimiz kimi, "böyük Ermənistan" xülyasının tərkib hissəsidir. Bütövlükdə isə sadalananlar ermənilərin Gürcüstanın Cavaxetiya regionuna olan ərazi iddialarının daim aktual olmasının göstəricisidir.

**Nurlan QƏLƏNDƏRLİ**

# Ermənistan vətəndaş müharibəsi təhlükəsi ilə üz-üzə

*Keçmiş hakimiyyətin və mövcud koalisiyanın parlamentdəki deputatları Paşinyanı devirmək istəyirlər*



İşğalçı Ermənistanda gərginlik yeni mərhələyə qədəm qoyub. Belə ki, indiki hakimiyyətin namizədinin qalib gəldiyi İrəvan meri seçkilərindən sonra baş nazir Nikol Paşinyanın növbədənkənar parlament seçkiləri keçirməyə start verdiyini açıqlaması hələ də parlamentdə əksər çoxluğa malik olan Respublikaçıları hərəkətə keçirib. Yayılan məlumatlara görə, oktyabrın 2-də parlamentdə qanunverici orqanın buraxılmasını çətinləşdirən "Reqlament haqqında" konstitusiya qanununa dəyişiklik edilməsi barədə qanun layihəsi qəbul edilib. N.Paşinyanın rəhbərlik etdiyi "Çıxış" blokunun boykot etdiyi iclasda qəbul olunan layihəyə mövcud koalisiya hökumətində təmsil olunan "Çarukyan" bloku və "Daşnaksutyun" partiyasının deputatlarının da dəstək verməsi işğalçı dövlətin paytaxtında gərginliyin pik nöqtəyə çatmasına səbəb olub.

Bundan sonra, paytaxt sakinlərini parlamentin qarşısına səsləyən baş nazir N.Paşinyan dekabr ayında növbədənkənar parlament seçkilərinin keçiriləcəyini bildirib. N.Paşinyan, həmçinin mitinqdəcə "Çarukyan" bloku və "Daşnaksutyun" Erməni İnqilabi Federasiyasının hökumətdə təmsil olunan nazirlərini işdən azad edib və koalisiyanın dağıldığını elan edib. Onun gözlənilməz və tələsik addımı isə birmənalı qarşılanmayıb, ekspertlər bu qərarın N.Paşinyanın təklənməsinə səbəb olacağını düşünürlər.

Parlamenti mühasirəyə alan tərəfdarları ilə gecənin gec saatlarına qədər meydanda olan baş nazir növbədənkənar seçkilərə getməyin labüdlüyünü elan edib. Deputatlarla danışıqlardan sonra istefa verəcəyini elan edən N.Paşinyanın sözlərinə görə, parlamentdəki fraksiyalarla razılığa gəliblər ki, Ermənistanın baş nazirinin istefası halında namizəd irəli sürməyəcəklər. Belə ki, mövcud qanunvericiliyə görə, parlamentdə iki dəfə baş nazir seçilməsə, növbədənkənar parlament seçkilərinə start veriləcək. Seçkilərə qədər isə indiki baş nazir N.Paşinyan hökumət rəhbəri səlahiyyətlərini icra edəcək. Lakin N.Paşinyanın ortaq məxrəcə gəlindiyi barədə bəyanatına baxmayaraq, parlamentin sədr müavini Respublikaçı E.Şarmazanov və "Çarukyan" blokunun deputatı, vitse-spiker Mikael Melkumyan tərəfindən heç bir razılaşmanın əldə olunmadığı barədə verilən açıqlamalar vəziyyəti daha da gərginləşdirib. Bununla yanaşı, oktyabrın 2-də parlamentdə çıxış edən "Çarukyan" fraksiyasının deputatı Gevorq Petrosyan baş nazir N.Paşinyanı mövcud intriqanın əsas səbəbkarı kimi göstərib. Respublikaçılar Partiyasının parlament fraksiyasının rəhbəri Vahram Baqdasaryan isə oktyabrın 3-də bildirib ki, dekabr ayında seçkilərin keçirilməsi ilə əlaqədar heç bir müzakirələr aparılmayıb. Onun sözlərinə görə, siyasi qüvvələrlə danışıqlar aparılmadan buna getmək məntiqsizdir.

N.Paşinyan isə koalisiyanın üzvləri olan nazirlərin istefaya göndərilməsi barədə qərarı prezident Armen Sarkisyana təqdim edib. Beləliklə, oktyabrın 3-də səhər Ermənistan prezidenti A.Sarkisyan iqtisadi inkişaf və investisiyalar naziri Artsvik Minasyan, energetika infrastrukturu və təbii sərvətlər naziri Artur Qriqoryan, kənd təsərrüfatı naziri Artur Xaçaturyan, fövqəladə hallar naziri Qraçya Rostomyan, idman və gənclərin işləri üzrə nazir Levon Vaqradyan, nəqliyyat, rabitə, informasiya texnologiyaları naziri Aşot Hakopyanın vəzifələrindən azad olunması barədə fərman imzalayıb və bu fərman prezidentin saytında yerləşdirilib.

Bu arada Ermənistanda siyasi böhrana qədər gətirib çıxaran hadisənin, yəni parlamentin qalmaqallı layihəni qəbul etməsinin təsadüfi olmadığını sübut edən yeni məlumatlar ortaya çıxıb. "Joğovurd" qəzetinin məlumatına görə, Ermənistanın eks-prezidenti Robert Koçaryan Respublikaçılar Partiyası nümayəndələri və Serj Sarkisyanla əməkdaşlıq etməyə başlayıb. Belə ki, yayılmış söz-söhbətlərə görə, R.Koçaryan eks-prezident Serj Sarkisyanla yas mərasimində xeyli söhbətləşib, Respublikaçıların icraiyyə komitəsinin iclasında iştirak edib. Partiyanın mətbuat xidmətinin rəhbəri E.Şarmazanov bunu təkzib etsə də, hər iki məlumat etibarlı mənbələrdən təsdiq olunub.

Yaranmış mövcud vəziyyəti dəyərləndirən ekspertlər qanunverici hakimiyyətə, orduya və yerli idarəetmə orqanlarının bəzilərinə tam nəzarət edə bilməyən mövcud hakimiyyətin təklənməsinin yaxın günlərdə Ermənistan üçün yaxşı heç nə vəd etmədiyini söyləyirlər. Hadisələrin bu məcrada davam etməsi isə tərəfdarlarını küçələrə tökməkdən başqa siyasi mübarizə metoduna malik olmayan N.Paşinyanın devrilməsi və son nəticədə Ermənistanda vətəndaş müharibəsinin başlaması ehtimalını gündəmə gətirir.

**Qaşqay ZİYƏDDİNOĞLU**

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Məqalə KİVDF-nin maliyyə dəstəyi ilə "Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi" istiqaməti üzrə həyata keçirilən layihə çərçivəsində hazırlanmışdır

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

# Azərbaycanın bölgələrində meyvə-tərəvəz istehsalında ciddi artım müşahidə olunur

*Regionlarda fermerlər bol məhsul toplayaraq yerli və xarici bazarlara çıxarırlar*



Azərbaycanda bütün sahələrin paralel inkişafı, iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun dinamik inkişafının təmin edilməsi, rəqabətqabiliyyətliliyin artırılması və investisiya qoyuluşunun sürətləndirilməsi sosial-iqtisadi inkişaf siyasətinin prioritet istiqamətlərindəndir. Məhz həyata keçirilən bu siyasət nəticəsində əldə edilən uğurlar regionların hərtərəfli inkişafını təmin edib. Daha dəqiq desək, sosial-iqtisadi inkişaf dinamikasında regionların payı ilbəil artmaqdadır. Bu da, ilk növbədə, bölgələrin ənənələri, inkişaf perspektivləri, əmək resursları və digər cəhətlər nəzərə alınmaqla qəbul edilən məqsədyönlü Dövlət proqramları nəticəsində mümkün olur. Ümumiyyətlə, regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul edilən müvafiq Dövlət proqramları bölgələrin tarazlı inkişafını şərtləndirir. Belə ki, Dövlət proqramları çərçivəsində respublikanın bütün bölgələrində yeni yollar çəkilib və ya yenidən qurulub, çoxlu sayda körpülər, yol qovşaqları tikilib, kommunal infrastruktur daha da yaxşılaşdırılıb, rabitə və digər xidmətlərin səviyyəsi yüksəlib, çoxsaylı sənaye, kənd təsərrüfatı, xidmət, ticarət müəssisəsi fəaliyyətə başlayıb.

Bu mənada ümumilikdə ölkəmizdə, eyni zamanda regionlarda kənd təsərrüfatının inkişafının da xüsusi diqqət mərkəzində olduğunu deyə bilərik. Bu inkişaf özünü meyvə-tərəvəz istehsalının artımında da göstərir. Bu məqamda qeyd edək ki, hazırda regionda meyvə-tərəvəz yığımı, istehsalı böyük vüsət alıb.

Məsələn, Quba rayonunda alma yığımının qızğın çağıdır. Verilən məlumatlara görə, bu rayonda məhsuldarlığın artmasında xaricdən gətirilən alma sortlarının da rolu var. Qubanın alma bağları üçün Fransadan gətirilmiş tinglər də özünü doğruldub. Bu sortlar məhsuldarlığı ilə seçilir. Rayonun Dəlləkli kəndində yerləşən "D-Fruits" MMC-nin nümayəndəsi Şahin Məmmədov KİV-ə açıqlamasında bildirib ki, bu sortların ən üstün cəhəti tez bar verməsidir. Şahin Məmmədov 10 ilə yaxındır ki, "D-Fruits" MMC-də işləyir. Təsərrüfatda alma bağları üçün tinglər Fransadan gətirilib. Çox məhsuldar sortlardır, artıq ikinci ildən bar verir. Təsərrüfatdakı bağlar avtomatik suvarma sistemi ilə təchiz edilib, suvarmada damcı sistemindən istifadə olunur.

Qubalı bağban bağlarda məhsul yığımı zamanı müasir texnologiyalardan istifadə edildiyini deyib: **"Meyvə yığımı ən müasir texnologiya - kombayn vasitəsilə həyata keçirilir. Kombayn ilə yığıma bir qrup işçi cəlb olunur və ən müasir texnika vasitəsilə meyvələr tez, itkisiz və heç bir fiziki zədə almadan çeşidlənərək səbətlərə yığılır. Yığım avqust ayının 15-dən başlayaraq noyabrın 20-dək davam edir. Şirkətimizdə 1 hektar alma bağına 2 min 500-2 min 700 alma tingi əkilir, ancaq yerli sortlar əkildiyi təqdirdə 500 tingdən istifadə olunur. Xarici sortlardan bir ağacdan 20-30 kiloqram, bir hektardan isə 60-70 ton meyvə yığılır".**

Şamaxı rayonunda kartof yığımı başa çatıb və torpaq mülkiyyətçiləri sahələrdən 2390 ton məhsul götürüblər. Rayon Statistika İdarəsindən bildirilib ki, cari mövsümdə istehsal edilən kartof ötən ilki göstəricidən 619 ton çoxdur. Hər hektardan orta məhsuldarlıq 67,6 sentner təşkil edib. Bir sıra ərazilərdə, o cümlədən daha çox kartof əkilən Qızmeydan, İkinci Cabanı, Çuxuryurd, Ərçiman, Şəhriyar qəsəbə ərazi vahidlərində məhsuldarlıq daha yüksək olub.

Cəlilabadlı gənc fermer Samir Bayramov isə Türkiyədən gətirdiyi yeni lobya növündən bol məhsul əldə edib. S.Bayramov bu il təsərrüfatında yerli lobya növləri ilə yanaşı, 2 hektar sahədə yeni növ lobya əkib. Yeni lobya növünün daha məhsuldar, xəstəliyə, istiyə və yağışa davamlı olduğunu söyləyən gənc fermer artıq sahələrdə yığım kampaniyasına başlanıldığını, qış mövsümünədək davam edəcək məhsul yığımına 100-ə yaxın fəhlənin cəlb olunduğunu, əkilən sahədən 1 tona yaxın məhsul götürəcəyini bildirib. Məhsulun satışında heç bir problemin olmadığını deyən fermer növbəti əkin zamanı 3 hektar sahədə yeni lobya növündən istifadə ediləcəyini söyləyib. Qeyd edək ki, hazırda yerli bazarlarda lobyanın satış qiyməti 60-70 qəpikdir.

Tərəvəz istehsalı ilə bağlı Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində də mühüm addımlar atılır. Belə ki, Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində olan Dövlət Aqrar Ticarət Şirkətinin (DATŞ) nümayəndə heyəti İqtisadiyyat Nazirliyinin təşkilatçılığı ilə Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində səfərdə olub. Səfər çərçivəsində DATŞ nümayəndələri Cocuq Mərcanlı kəndində yaradılmış şəraitlə tanış olub, təsərrüfat sahibləri ilə fikir mübadiləsi aparıblar.

Qeyd edək ki, İqtisadiyyat Nazirliyinin və Türkiyənin Azərbaycandakı səfirliyinin birgə həyata keçirdiyi layihələr çərçivəsində Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində istixana və arıçılıq təsərrüfatları yaradılıb. Burada hər biri 160 kvadratmetr sahəyə malik polietilen örtüklü tunel tipli 15 istixana qurulub. On beş ailənin hər birinə 10 arı ailəsi olmaqla, 150 arı ailəsi verilib. Cocuq Mərcanlı fermerlərinə dəstək məqsədilə istixanalarda yetişdirilmiş 1100 kiloqram melit sortundan olan xiyar məhsulu Dövlət Aqrar Ticarət Şirkəti tərəfindən satın alınıb.

Təsərrüfatlardan əldə olunacaq məhsulların satışına dəstək məqsədilə Dövlət Aqrar Ticarət Şirkəti ilə Cocuq Mərcanlı fermerləri arasında gələcək əməkdaşlıq üçün memorandumun imzalanması barədə razılıq əldə olunub.

Azərbaycanda yeganə kollektiv təsərrüfat olan Nikitin adına kolxozda isə şərab istehsalı üçün yüksək keyfiyyətə malik texniki sort "Mədrəsə" üzümünün yığımına başlanılıb. Kolxozda gün ərzində 40-50 ton üzüm yığılır və məhsul respublikamızın şərab zavodlarına göndərilir. Qeyd edək ki, kolxoz İsmayıllı rayonunda ən iri üzümçülük təsərrüfatlarındandır. Burada 296 hektar texniki sort olan üzüm bağı var. Bu bağlar ötən əsrin 70-ci illərində salınıb. Keçən əsrin 90-cı illərində rayonda, demək olar ki, bütün plantasiyalar baxımsızlıq üzündən məhv olsa da, Nikitin adına kolxozda bu bağlar qorunub saxlanıb.

Kolxozda hər il orta hesabla 1000 ton üzüm istehsal edilir. Cari mövsümdə plantasiyalardan 1100 tondan çox məhsul yığılacağı proqnozlaşdırılır.

Üzümçülük Ağstafa rayonu üçün də ənənəvi təsərrüfat sahələrindən olsa da, respublikamızın müstəqilliyinin ilk illərində bu sahəyə lazımi diqqət göstərilmədiyindən rayonun iqtisadiyyatında yerini tədricən itirməyə başlamışdı. Bu gün isə dövlət başçısı tərəfindən qeyri-neft sektorunun inkişafı ilə əlaqədar kənd təsərrüfatının müxtəlif sahələrinə, o cümlədən üzümçülüyə göstərilən diqqət və qayğı, qəbul olunmuş müvafiq Dövlət proqramları ənənəvi üzümçülük rayonları kimi, Ağstafada da əvvəlki üzüm bağlarını bərpa etməyi, yaxud yeni bağlar salmağı zərurətə çevirib.

Ağstafa Dövlət Aqrar İnkişaf Mərkəzindən bildirilib ki, hazırda rayonda 476 hektar üzüm bağı var. Bunlardan 425 hektarı bar verən, 51 hektarı isə yeni salınan bağlardır. Ötən il rayon üzrə məhsuldarlıq 28 min 280 sentner olub. Bu ilin məhsulu üçün artıq 20 gündən çoxdur ki, sahələrdə üzüm yığımına başlanılıb. Bu vaxta qədər bağlardan 20 min 400 sentner məhsul yığılıb və satışa göndərilib. İlkin nəticələr onu göstərir ki, bu il məhsuldarlıq keçən illə müqayisədə 15-20 faiz çox olacaq.

Qeyd edilib ki, dövlətin aqrar sahəyə ayırdığı güzəştli kredit, gübrələrin 70 faiz güzəştlə verilməsi, eləcə də hər hektar üçün subsidiyaların tətbiq edilməsi fermerləri yeni üzüm bağlarının salınmasına həvəsləndirib. Ağstafa rayonunun ən çox üzüm sahəsi olan yaşayış məntəqələrində - Həsənsuda 131 hektar, Vurğun qəsəbəsində 122 hektar, Pirlidə isə 86 hektar üzüm bağı salınıb.

Göyçay rayonunda isə xurma yığımına start verilib və ilk günlərdən istehsal olunan məhsul Rusiya bazarlarına çıxarılır. Rayon Dövlət Aqrar İnkişaf Mərkəzindən bildirilib ki, cari mövsümdə bağlarda bol xurma yetişdirilib. Rayonda kütləvi yığım kampaniyasına hər il oktyabrın birinci ongünlüyündən başlansa da, artıq bir neçə gündür ki, əksər ərazi vahidlərində xurma yığılır və tədarük olunan meyvə birbaşa Rusiya bazarlarına göndərilir. Hələlik Rusiyaya 50 ton xurma ixrac olunub.

Qeyd edək ki, Göyçayda ümumilikdə 6031 hektar meyvə bağları var. Bunun 1417 hektarı xurma bağıdır. Son illər bu sahəyə maraq artmaqdadır. Belə ki, son iki ildə rayon ərazisində 200 hektarda yeni xurma bağları salınıb. Xurma bağları əsasən Cəyirli, Potu, Qarabaqqal, Mirzəhüseynli, Ərəbcəbirli, Çayarxı, Qızılağac, Məlikkənd, Kürdmaşı və bir sıra digər kəndləri əhatə edir. Ötən il bağlardan 18863,5 ton məhsul götürən bağbanlar cari ildə istehsalın 19 min tondan çox olacağını proqnozlaşdırırlar. Hər il olduğu kimi, bu il də yığılan məhsulun 95 faizi Rusiya, habelə Ukrayna bazarlarına göndəriləcək.

İmişli rayonu isə çuğundur əkini və istehsalı ilə respublikada ön sıralardadır. Belə ki, bu günədək plantasiyalardan 3 min 977 tondan çox çuğundur yığılıb ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 829 ton çoxdur. Rayon Statistika İdarəsindən bildiriblər ki, bu il İmişlidə 109 hektar sahədə çuğundur becərilib. Torpaq mülkiyyətçiləri "Kayota", "Zeper", "Radofe" kimi yüksək məhsuldar sortların əkininə üstünlük veriblər və nəticədə plantasiyalarda bol məhsul yetişib.

Fermerlər havaların əlverişli keçməsindən yararlanaraq yığımı tez bir zamanda yekunlaşdırmağa çalışırlar. Məhsul istehsalçısı Nadir Vəliyevin dediyinə görə, yığılmış sahələrin hər hektarının məhsuldarlığı orta hesabla 45 sentnerə çatır ki, bu da ötən ildəkindən 15 sentner çoxdur.

Qeyd edək ki, ötən il imişlili əkinçilər çuğundur sahələrindən 6 min 104 ton məhsul yığıblar.

İqtisadiyyatının əsasını müxtəlif növ kənd təsərrüfatı məhsullarının istehsalı təşkil edən Samux rayonunda bu il 709,7 hektar sahədə tərəvəz yetişdirilib. Bunun 677,2 hektarı əhali təsərrüfatlarında, 32,5 hektarı isə kənd təsərrüfatı müəssisələrində becərilib. Samux rayon Statistika İdarəsinin rəisi Gündüz Bayramov bildirib ki, təsərrüfatlardan indiyədək 11 min 447 ton məhsul yığılıb. Bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 2 min ton və ya 21 faiz çoxdur.

Bu il tarlalardan 5 min 269 ton pomidor, 1836 ton xiyar, 1389 ton badımcan, 609 ton baş sarımsaq, 481 ton bibər, 461 ton baş soğan, 167 ton kələm, 161 ton yaşıl lobya, 83 ton süfrə çuğunduru, 81 ton yerkökü, 910 ton digər tərəvəz növləri yığılıb. Rayonda istehsal olunan tərəvəz əhalinin ərzaq tələbatını ödəməklə yanaşı, bazarlara çıxarılır, eyni zamanda, bir sıra ölkələrə ixrac edilir.

**Nardar BAYRAMLI**

# Zaqataladakı yeni Satış və Xidmət Mərkəzinə gələn ilk 50 abunəçi "Bakcell"dən hədiyyə qazanıb



Azərbaycanın İlk Mobil Operatoru və Ən Sürətli Mobil İnternet Provayderi Bakcell şirkəti növbəti Satış və Xidmət Mərkəzini Zaqatala şəhərindəki abunəçilərinin istifadəsinə verib. Beləliklə, Şirkət bir-birinin ardınca 3 gündə 3 yeni mərkəzin - Göyçayda diler mağazasının, Qəbələ və Zaqatalada isə satış və xidmət mərkəzlərinin açılışını edib.

Bakcell özünün yüksək sürətli 4G şəbəkəsi ilə yanaşı, satış və xidmət şəbəkəsini də Azərbaycanın regionlarına doğru genişləndirir. Bu fəaliyyət planı çərçivəsində Zaqatalada açılmış yeni Satış və Xidmət Mərkəzi Bakcell abunəçilərinə tam çeşiddə müştəri xidmətlərindən yararlanmaq, eyni zamanda ən son model mobil cihazlar, mobil nömrə və aksessuarlar əldə etmək imkanı verir.

**"Bakcell ölkənin ən innovativ məhsul və xidmətlərini və ən sürətli mobil internetini Azərbaycanın bütün bölgələrində yaşayan abunəçilərinə təqdim etmək üçün böyük işlər görür. Bizim 4G xidmətimiz artıq Zaqatalada da fəaliyyət göstərir və yerli əhali Bakcell şəbəkəsinin etibarlılığı və yüksək sürətindən tam şəkildə yararlanmaq imkanına malikdir. İnanıram ki, açdığımız yeni Satış və Xidmət Mərkəzi abunəçilərimizə əlavə rahatlıq və üstün müştəri təcrübəsi bəxş edəcək",** - deyə Bakcell şirkətinin baş icraçı direktoru Nikolai Beckers bildirib.

Yeni xidmət mərkəzinə baş çəkən ilk müştərilər maraqlı sürprizlə qarşılaşıblar. Belə ki, buradakı xidmətlərdən faydalanan ilk 50 abunəçi "Bakcell"dən pulsuz 4G data kartı və 1 ay pulsuz İnternet hədiyyə qazanıb.

Bakcell özünün yüksəkkeyfiyyətli xidmətlərini və ölkədə ən yüksək sürətli mobil şəbəkəsini Azərbaycanın bütün bölgələrinin sakinlərinə daha yaxın etmək məqsədilə həm mobil rabitə, həm də müştəri xidməti və satış şəbəkələrini genişləndirməyə davam edəcək.

# "Nar"-dan autizmli uşaqlara dəstək



"Nar" əməkdaşları autizm spektr pozuntuları ilə üzləşən uşaqların çalışdığı "Kashalata" kafe-atelyenin qonağı oldu və uşaqlarla görüşdü. Autizmli uşaqların cəmiyyətə inteqrasiyasına dəstək olmaq və onların sosial bacarıqlarını artırmaq məqsədilə "Kashalata" kafedə autizmli uşaqlar çalışır və müştərilərə özləri xidmət göstərir. Mobil operatorun əməkdaşları xüsusi diqqət tələb edən uşaqların çalışdığı kafe üçün zəruri olan avadanlıq hədiyyə etməklə yanaşı, kafenin müştərisi oldu.

Autizm Spektr Pozğunluqları ilə üzləşən uşaqlarla görüşdə "Azerfon" MMC-nin baş icraçı direktoru Qunnar Panke də iştirak edib: **"Nar" üçün yüksəkkeyfiyyətli xidmətlə yanaşı, sosial layihələri həyata keçirmək çox önəmlidir. Korporativ Sosial Məsuliyyət (KSM) strategiyamız çərçivəsində cəmiyyətimizdə xüsusi qayğıya ehtiyacı olan autizmli uşaqlara böyük məmuniyyət hissi ilə dəstək oluruq. İnanırıq ki, bir çox biznes qurumları da bu təşəbbüsümüzə qoşulacaq".**

Qeyd edək ki, "Kashalata" kafe Autizm Spektr Pozğunluqları ilə üzləşən uşaqlarla işləyən "Birgə və Sağlam" İctimai Birliyinin nəzdində fəaliyyət göstərir. Reabilitasiya mərkəzində 70-dən artıq xüsusi qayğıya ehtiyacı olan autizmli uşaq var.

Autizmli uşaqlara dəstək "Nar"-ın KSM strategiyası çərçivəsində baş tutub. Mobil operatorun həyata keçirdiyi KSM strategiyası haqqında daha ətraflı məlumatı nar.az saytından öyrənmək olar.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 93%-ni əhatə edir və 7000-dən artıq baza stansiyası ilə 2,1 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.

# Azercell Beyləqanda yeni eksklüziv mağazasını açdı

*Yeni mağazadan Smartfon alan hər bir müştəri Azercell-dən 150 AZN hədiyyə qazanacaq*

Azercell

Ölkəmizdə innovativ müştəri xidmətləri modelini quran və həyata keçirməkdə davam edən, hər zaman abunəçilərinə daha rahat və keyfiyyətli xidmət təqdim etməyi hədəfləyən "Azercell Telekom" MMC Beyləqanda yeni eksklüziv mağazasının açılışını edib.

Oktyabrın 3-dən etibarən Azercell Sərdar İmrəliyev küç. 265 ünvanında yerləşən yeni konsepsiyalı mağazasını Beyləqan şəhərində yaşayan abunəçilərinin ixtiyarına verib. Mağazanın açılışı ilə əlaqədar Azercell bütün müştəriləri üçün yeni Smartfon kampaniyasını da təqdim edir. Belə ki, 03 oktyabr 2018-ci il tarixindən ilk 7 gün ərzində Beyləqan Eksklüziv mağazasından yeni Smartfon alan hər bir müştəri Azercell nömrəsinin balansına danışıq və internet istifadəsi üçün 150 AZN hədiyyə qazanacaq.

Məlumat üçün bildirək ki, yeni mağaza abunəçilərə yüksək standartlara uyğun xidmət göstərmək üçün bütün şərait və ən müasir avadanlıqla təmin olunub. Mağazada abunəçilər peşəkar satış mütəxəssislərindən istədiyi məhsul haqda məlumat ala, onu sınaqdan keçirə bilərlər, gündəlik istifadə üçün müxtəlif cihazlar (MiFi, USB modem və s.), aksessuarlar əldə edə, mobil telefonları kredit və nağd şəkildə ala bilərlər. Abunəçilər burada, həmçinin şirkətin müştəri xidmətləri mərkəzlərində təqdim olunan bir çox əməliyyatları da icra edə bilərlər.

Qeyd edək ki, Azercell-in Eksklüziv mağazaları Bakı (Tbilisi pr., 44C, Bülbül pr., 5, Qara Qarayev pr., 30\42, m. 52, Bəxtiyar Vahabzadə küç., 556/57, Cavadxan küçəsi, 3005), Xırdalan (Heydər Əliyev pr., Mehdi Hüseyn küç., 54), Mərdəkan (Mərdəkan qəs., S.Yesenin küç., 92/2, m.30), Xaçmaz (Nəriman Nərimanov küç., 40), Salyan şəhəri (Heydər Əliyev küç., 105), Quba (Heydər Əliyev pr., 194 və Qələbə küç., 12) , Sumqayıtda (11-ci Mkr., Koroğlu və Üzeyir Hacıbəyov küçələrinin kəsişməsi), Şamaxıda (Ağamirzəli Əhmədov küç., 1), Bərdədə (İsmət Qayıbov küç., 8) və Gəncədə (Heydər Əliyev prospekti, 149) abunəçilərin ixtiyarına verilib.

## İTMİŞDİR

Əliyeva Yavər Məcid qızına məxsus Bakı şəhəri Nəsimi rayonu Bakıxanov küçəsi 31, mənzil 5 ünvanının çıxarışı (kupça) itdiyi üçün etibarsız sayılır.

Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Hikmət BABAOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyov - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 6074
"Kapital Bank"ın Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

İnformasiya mənbələrimiz:
"AZƏRTAC",
"Azadinform", "SİA"
Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Buraxılışa məsul:
Zahid İLHAMOĞLU